**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**Fakültə: İqtisadiyyat və menecment departamenti**

**Kafedra:**

**İxtisas: Turizm işinin təşkili**

**Müdafiəyə buraxılır:**
**"__" "____" 2025-ci il**
**Bölmə rəhbəri:___________________**

**BAKALAVR TƏHSİL PİLLƏSİ ÜZRƏ**

# B U R A X I L I Ş İ Ş İ

**MÖVZU:** TURİZM NƏQLİYAT XİDMƏTLƏRİNİN DAVAMLI İNKİŞAFI EKOLOJİ VƏ İQTİSADİ PRESPEKTİVLƏR

**QRUP:** TT1Q-20

**TƏLƏBƏ:** Mahmudov Tural Dağlar oğlu

**ELMİ RƏHBƏR:** B/m Qırtımov Qüdrət

**ZAQATALA-2025**

## MÜNDƏRİCAT

**Giriş..........................................................................................................3**

**I FƏSİL. TURİZM SEKTORUNUN İNKİŞAFINDA TURİZM NƏQLİYYATININ ROLU**

1.1. Turizm nəqliyyatı anlayışı və növləri....................................................................6

1.2. Turizm nəqliyyatından istifadənin əhəmiyyəti.......................................................12

**II FƏSİL. TURİZM NƏQLİYYATININ İQTİSADİ VƏ EKOLOJİ TƏSİRLƏRİ**

2.1. Turizm nəqliyyatının iqtisadi inkişafdakı rolu .......................................................20

2.2. Ekoloji cəhətdən dayanıqlı nəqliyyat sistemlərinin tətbiqi ....................................24

**III FƏSİL. TURİZM SEKTORUNDA TURİZM NƏQLİYYATINDAN İSTİFADƏ NÜMUNƏLƏRİ**

3.1. Turizm sektorunda ekoloji nəqliyyat vasitələrindən istifadə metodları və nümunələri..........................................................................................................30

3.2. İqtisadi inkişafda ekoloji təmiz turizm nəqliyyatının tətbiqi nümunələri...........................................................................................................39

**NƏTİCƏ..........................................................................................................44**

**XÜLASƏ..........................................................................................................46**

**ƏDƏBİYYAT..................................................................................................48**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Turizm nəqliyyatı iqtisadi inkişafın təmin olunması və müasir iqlim təmizlənməsi prosesində tətbiqi mütləq olan sahələrdəndir. Turizmin qlobal inkişafı sistemində turizm nəqliyyatının olması önəmli, vacib faktordur. Turistlərin ölkə daxilinə və ölkə xaricinə səyahətinin təmin edilməsi, onların yaşayış və istirahət ünvanlarına çatdırılmasının təmin edilməsi turizm nəqliyyat sisteminin yaradılmasına şərait yaradır.

Turizm nəqliyyatı turistlərin ünvana çatdırılması ilə yekunlaşmayaraq onların məqsədli getdikləri regionun turizm zonalarına səyahətinin təmin edilməsi prosesini həyata keçirir. Nəqliyyat turizmin bir parçasıdır. Turizm axının tənzimlənməsi üçün müxtəlif nəqliyyat vasitələrindən istifadə olunması zəruridir.

Müxtəlif xarici ölkələrə və ölkədaxili ərazilərə səyahət etmək üçün müxtəlif nəqliyya vasitələrindən istifadə edilir. İstifadə edilən nəqliyyat vasitələri ekologiyanın çirkləndirilməsinə növləri var.

Son illərdə dünya ölkələrinin iqlim dəyişikliklərinin aradan qaldırılması üçün yüksək səy göstərdiklərini görə bilərik. İqlim çirklənməsinə səbəb olan faktorlardan biri də nəqliyyat vasitələrindən istifadə zamanı müxtəlif zərərli qazların atmosferə qarışmasıdır. Turizmin təşkil edilməsinin qarşısında əsas şərtlərdən biri ətraf mühitə maadi və mənəvi zərər vermədən işin təşkilidir.

Turizm nəqliyyatından istifadə turizm sektorunda maddi gəlirin 30%-ni öz üzərinə götürür. İqtisadi gəlirin əldə edilməsində mövqe tutan turizm nəqliyyatı həyatımızda müsbət və mənfi keyfiyyətlərə sahibdir. Turizmin ölkəmizdə inkişafı, turizmə ayrılan maliyyənin ildə-ilə artması ölkəmizə turist axınının da artmasına səbəb olur. Turizm nəqliyyatının mövcudluğu ölkəmizdə turizm sahəsindəki kütləvi axının tənzimlənməsinə yardımçı olur. Nəqliyyatın müxtəlif növləri olduğunu nəzərə alaraq onların mənfi və müsbət təsirlərinin də olduğunu bilirik. Ekologiyamızın çirklənməsi turizm nəqliyyatının turist daşınmasından alınan gəlirdən daha çox maliyyə tələb edir. Çirklənmənin qarşısını almaq üçünsə bir tərəfli işlər deyil qarşılıqlı şəkildə görülən tədbirlər çox vacibdir. Texnoloji inqilab nəticəsində neft, qazla işləyən nəqliyyatların yaratdığı zərərli maaddələrin aradan qaldırılması üçün addımlar atılır. Turizm nəqliyyatından istifadə

edilməsi yalnız maliyyənin artırılmasına xidmət etməməklə qlobal istiləşmənin qarşısının alınmasına yönəldilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Kainatımızın qarşısında dayanan birinci, illərlə dəyişməyən problem ekoloji çirklənmə, iqlim çirklənməsidir. Ekoloji çirklənmənin qarşısının alınmasında görülən tədbirlərə baxmayaraq çirklənmənin qarşısının alınması yolunda hələdə qarşısı alına bilməyən mənfi hallar mövcuddur. Turizm nəqliyyatını turistlərin səyahətinin təmin edilməsi ilə yanaşı ekoloji çirklənmənin qarşısının alınmasında önəmli rol oynayır. Ekoloji təmizliyin təmini yolunda ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi, ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi üçün nəqliyyat şəbəkələrinin yerləşdiyi iş yerlərində ekoloji çirklənməyə səbəb nəqliyyat vasitələrinin yeni nəsil elektromobillər, günəş enerjili, yaşıl enerjiylə çalışan nəqliyyat vasitələri ilə əvəz edilməsinin təmin edilməsidir. Tədqiqatın nəzəri və metodoloji əsasları: Turizm nəqliyyatından davamlı istifadə, iqtisadi inkişafın təmin edilməsi və iqtisadi inkişafın təmini yolunda ekoloji çirklənmə prosesininq qarşısının alınmasında ekoloji təmiz nəqliyyat vasitələrinin tətbiqinin araşdırılmasının təmin edilməsidir.

**Tədqiqatın obyekti**: Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin iqtisadi inkişafdakı rolunun araşdırılması və yeni nəqliyyat modellərinin yaradılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsidir.

**Tədqiqatın predmeti**: tədqiqat işində turizm nəqliyyatından istifadənin ekoloji uyğunluğu, iqtisadi effektivliyi, davamlı inkişafının təmin edilməsinin əhəmiyyətinin araşdırılmasıdır.

**İnformasiya bazası**: İqtisadi inkişafla əlaqəli elmi ədəbiyyatlar, internet resursları, turizm sahələrində araşdırmalar.

**Buraxılış işinin strukturu:** Tədqiqat işi, giriş, xülasə, 3 fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin qruluşu I fəsil “Turizm sektorunun inkişafinda turizm nəqliyyatinin rolu”, II fəsil “Turizm nəqliyyatinin iqtisadi və ekoloji təsirləri”, III fəsil “Turizm sektorunda turizm nəqliyyatindan istifadə nümunələri” haqqında danışılır. Girişdə buraxılış işinin aktuallığı əsaslandırılmış, onun obyekti, predmeti, nəzəri və metodoloji əsasları, informasiya bazası öz əksini tapmışdır.

Buraxılış işinin sonunda tədqiqatın aparılması prosesində yaranan nəticənin qısa məzmunu, xülasə və istifadə edilmiş ədəbiyyatların siyahısı əks edilmişdir.

# I FƏSİL. TURİZM SEKTORUNUN İNKİŞAFINDA TURİZM NƏQLİYYATININ ROLU

## 1.1. Turizm nəqliyyatı anlayışı və növləri

Turizm termininin dilimizə gəlmə tarixi çox qədimdir. İnsanların müəyyən məqsədlərə görə səyahət etməsinə deyilir. Səyahət etmək isə bəzən uzun, bəzən də qısa vaxt alır.

Turizm nəqliyyatının yaranması insanların uzun məsafələrə səyahəti və yük daşımaq üçün lazımlı olduğuna görə yaradılmışdır. Buna görə də insanlar səyahətinin rahat şəkildə keçməsi üçün nəqliyyat vasitələrindən istifadə edirlər. Qədim zamanlarda səyahət edərkən nəqliyyat vasitələrinin azlığından piyada gəzərək səyahət edirdilər. Daha sonralar isə səyahət zamanı heyvanlardan(dəvə, at və s.) istifadə etməyə başlamışlar. Əsrlər, qərinələr, illərin bir-birini əvəz etməsi, müasir texnologiyalar dövrünün tərəqqisi insanların səyahət üçün istifadə etdikləri nəqliyyat vasitələrinin də dəyişilməsinə səbəb olmuşdur. Nəqliyyat vasitələrinin müasir dövrümüzdə olan tərəqqisinə qədər uzun əsrlər keçmişdir. Ticarət yollarının inkişaf etməsi insanlarda şəhərlərarası ticarət əlaqəsinə tələbatı yaratdı. Bu zaman daha effektiv nəqliyyat vasitələrindən istifadə ehtiyacı yarandı.

Çarxın ixtira edilməsi insanların uzun yol tələbatlarınının daha səmərəli şəkildə getmələrinə yardımçı oldu. Elmi ixtiralar artdıqca alternativlərdə çoxalmağa başladı. Qeyd edə bilərik ki, hazırda nəqliyyat vasitəsi kimi heyvanların istifadə edildiyi turizm obyektləri də mövcuddur.

Məqsədindən aslı olaraq turizmin ekoloji turizm, biznes, tibbi və sağlamlıq turizmi, mədəni turizm, idman, əyləncə turizmi kimi növləri mövcuddur. Səyahət vasitəsinə görə isə nəqliyyat, velosiped və piyada turizmi kimi növləri mövcuddur. Növündən və məqsədindən aslı olmayaraq səyahət edən insanların müxtəlif nəqliyyatlara ehtiyacı yaranır. Səyahətçilər səyahət edərkən sırf səyahət etməklə kifayətlənmir, həmçinin büdcələrinin uyğun olduğu səyahət üsulu və yollarını seçirlər.

**Səyahət - müəyyən məqsəddən asılı olmayaraq, insanların məkan və zaman**

**çərçivəsində öz yerlərini dəyişməsi kimi ümumi mənada başa düşülən termindir.[Məmmədov C.A., Bilalov B.Ə. “Azərbaycanda gəlmə turizm və onun inkişaf yollan”, 2004, Bakı. S, 12]**

Turistlərin səyahəti zamanı müxtəlif nəqliyyat vasitələrindən istifadə edirlər. Buna görə də turizmin hər bir növündə nəqliyyata ehtiyac duyulur. Nəqliyyatdan istifadə isə məqsəddən aslı olaraq bir neçə hissəyə bölünür.

**Hava nəqliyyatı**: helikopter, təyyarə, xüsusi təyarələrlə səyahətlər nəzərdə tutulur. Nəqliyyatın bu növü şəhərlərarası, ölkələrarası turizmin inkişafına yönəldilməklə daha çox tur şirkətləri tərəfindən həyata keçirilir ki, xarici ölkə vətəndaşlarının səyahət etməsində yardımçı olur. Aviasiya şirkətləri tərəfindən turlar yaradılır. Turlar vasitəsilə insanlar aşağı və yüksək qiymətə uçuşlarını həyata keçirirlər. Hava nəqliyyatından istifadə edərək daha qısa müddətdə ünvana çatırlar.

Beynəlxalq hava hüququ beynəlxalq nəqliyyat hüququnun subinstitutudur və o, hava məkanının hüququ rejimini müəyyən edən, habelə ondan istifadə ilə bağlı dövlətlərarası münasibətləri tənzimləyən beynəlxalq hüquqi norma və prinsiplərin məcmusundan ibarətdir. [E.Ə.Əliyev, Beynəlxalq nəqliyyat hüququ, “SeNa” MMC nəşriyyat-poliqrafiya müəssisəsi, Bakı – 2009 S, 283]

Hava nəqliyyatı beynəlxalq çərçivədə ən geniş yayılmış nəqliyyat növü olması ilə uçuş biletlərinin yüksək qiymətə olması iqtisadiyyatımızda yüksək gəlir əldə edilməsinə səbəb olur. Turizmin inkişaf etdiyi ölkələrlə turizm əlaqələrinin mövcudluğu ölkəyə gələn və ölkədən xaricə hava nəqliyyatı vasitəsilə gedən turistlərin sayında artımla müşahidə edilir.

Əsas gəlirinin hava nəqliyyatından alan sahə ən çox iqim çirklənməsinə səbəb olan sahədir. Hava nəqliyyatından istifadə nəticəsində həm müxtəlif radiodalğalar, həm də müxtəlif zərərli qazlar yaranır ki, bu da iqlim çirklənməsinə səbəb olur. Bir sıra turizm şirkətləri fəaliyyət göstərir ki, sırf hava nəqliyyatı vasitəsilə ölkələrarası turlar təşkil edilir. Öləmizdə “STİMUL TRAVEL”, “Usta Turizm”, “NZ Travel Club”, “Access Travel”, “Jeluxe Travel”, “Eko Travel”, “SHANİ TRAVEL MMC”, “Granit AS Travel”, “DOST TRAVEL”, “Fly2Baku Transport”, “Zirvə travel”, “MOOD TRAVEL”, “Lavin travel” və s. kimi tur şirkətləri fəaliyyət göstərir ki, bu şirkətlər elektron formada tur

paketləri yaradır, turlar təşkil edirlər. Paketlərdə Türkiyə, Avropa, Dubay, Endirimli turlar və s. kimi məlumatlar əks olunaraq müxtəlif ölkələrə səyahətlər təşkil edilərək aviabiletlər satışa çıxarılır. Səyahətçilər büdcəyə uyğun şəkildə səyahət edirlər.

**Dəmiryolu nəqliyyatı**: nəqliyyatın bu növündən istifadə edən insanların səyahət zamanı izləmək şansları daha çox olur. Dəmiryolu nəqliyyatının 1) Sərnişin qatarları, 2) Sürət qatarları və 3) Turistik qatarlar olaraq növləri mövcuddur. Sərnişin qatarları qısa səyahətlərdə üstünlük təşkil edir.

İnsanlar qısa məsafələrə səyahət edərkən daha alternativ yollardan yəni dəmiryol nəqliyyatından istifadə edə bilərlər. Sürət qatarları yola sərf olunan zamanın azaldılmasında yüksək nəticə göstərir. Bəzi dünya ölkələrində bu qatarlardan istifadə edilir ki, bunlara Fransa, İtaliya, Yaponiya kimi inkişaf etmiş ölkələri nümunə göstərmək olar. Turistik qatarlar isə tur şirkətləri tərəfindən turistlərin şəhərlərarası tarixi yerləri görməsi üçün istifadə edilir.

Beynəlxalq dəmir yolu nəqliyyat daşımalarının hüquqi rejimini müəyyən edən və daşıma fəaliyyəti ilə bağlı dövlət lərarası münasibətləri nizama salan hüquq normalarının məcmusuna beynəlxalq dəmir yolu hüququ deyilir.**[E.Ə.Əliyev, Beynəlxalq Nəqliyyat Hüququ, “SeNa” MMC nəşriyyat-poliqrafiya müəssisəsi, Bakı – 2009 s, 77]**

Avtomobil nəqliyyatı bütün dünyada istifadə edilən ən məhşur və geniş yayılmış nəqliyyat növüdür.

**A)** Avtomobil nəqliyyatı ilə səyahətlərin edilməsi zamanı fərdi avtomobillər, avtobuslar, karavan adlandırdığımız insanların yaşaması üçün mühitin mövcud olduğu nəqliyyat vasitəsi, taksilər və xüsusi sifarişlə olan maşınlar aid edilir. Fərdi avtomobillərdən istifadə zamanı insanlar öz nəqliyyat vasitələri və ya səyahət etdikləri bölgədə fərdi şəkildə nəqliyyat kirayə edərək səyahətlərini fərdiləşdirə bilərlər.

**B)** Avtobus vasitəsilə səyahətlər isə daha çox tur şirkətləri tərəfindən qrup şəklində həyata keçirilir. Turizm obyektlərində bu cür kütləvi nəqliyyat vasitələrindən istifadə edilərsə ekologiyanın çirklənməsinin qarşısı alına bilər.

**C)** Avtomobil nəqliyyatının bir növü deyə biləcəyimiz nəqliyyat vasitələrindən birinə də

karavanları aid edə bilərik. Dünyanın bir çox yerində insanlar səyahət edərkən bu nəqliyyat növündn istifaə edirlər. Karavandan istifadə edən insanlar əlavə pul ödəməmək üçün tur şirkətlərinə müraiət etmədən gəzməyə üstünlük verirlər. Karavanla səyahətdə insanlar bir növ evlərini yanlarında daşıyırlar. Bu səyahətlər zamanı hər hansı tur şirkəti olmadanda səyahət etmək olur. Digər hallarda səyahətdə olduqları regionda karavanlar kirayə edərək səyahət edə bilərlər.

Karavan gəzintiləri zamanı insanlar getdikləri yerlərdə təbiətin çirkləndirilməsinə səbəb olurlar. Onlar tullantılarını ataraq bu cür mənfi hallar yaradırlar. **D)** Taksilərdən istifadə etməklə turistlər səyahət etdikləri regionları gəzə bilər, ətraf mühitlə tanış ola bilərlər. Bir çox turizm obyektlərinin qarşısında taksilər fəaliyyət göstərir ki, bu taksilər yüksək pul qarşılığında turistlərin səyahət etmələrində yardımçı olurlar

Dəniz və su nəqliyyatı- nəqliyyatın bu növündə insalar səyahət edərkən dənizlərdən istifadə edirlər. Daha uzun məsafələrdə səyahət zamanı insanlar böyük səyahət gəmilərindən istifadə edirlər. Okeanlara çıxışı olan dünya ölkələrinin bir çox uzun müddətli gəmi səyahətlərinə çıxırlar. Bəzi yerlərdə yəni göllərdə kiçik su hövzələrində nəqliyyat vasitələri kimi katerlər, qayıqlar, bərələrdən istifadə edilir Bir sıra turizm zonalarında kiçik göllərdə  obyekt sahibləri kiçik kater, gəmi, qayıqlardan istifadə edirlər.

**2.2.8. sahil və su turizmi – turistlərin su obyektlərinin sahillərində və su nəqliyyat vasitələrində göstərilən xidmətlərdən istifadə və istirahətlərinin təşkili, su idman növləri ilə məşğul olmasını özündə ehtiva edən turizm** [Azərbaycan Respublikasının Konstitusiyası, maddə 16]

Velosipedlər və piyada nəqliyyatı velosipedlə edilən səyahətlər ekologiyamızın qorunmasında daha səmərəlidir. Velosipedlərlə bir sıra insanlar dünya səyahətinə çıxır, həmçinin şəhərlərarası, rayonlararası səyahətlər edirlər.

Niderland, Danimarka, Almaniya, Çin, Yaponiya, İsveçirə, Fransa kimi ölkələrdə velosiped nəqliyyat vasitəsindən daha çox istifadə edirlər. Bu nəqliyyat vasitəsindən istifadə edərək ekologiyanın təmiz saxlanmasına yardımçı olurlar. Velosiped və piyada şəkildə səyahət edilməsi üçün yaşıllıqları artırmaq məqsədəuyğun olardı.

Nəqliyyatın bir başqa növüdə birləşdirilmiş və ya başqa adla desək kombinə edilmiş nəqliyyat adlandırılır. Bu nəqliyyat növü müxtəlif nəqliyyat növlərinin birləşməsidir. Buraya adlarını qeyd etdiyimiz hava, su, quru nəqliyyatı aid edilir.

1) Ekoloji nəqliyyat adındanda göründüyü kimi ekologiyanın qorunmasına yönəldilmişdir. Məqsəd nəqliyyat vasitələrində istifadə zamanı təbiətin qorunması, ekologiyanın qazlar vasitəsilə çirklənməsinin qarşısının alınmasıdır. Ekoloji nəqliyyatda yanacaqlar hərəkət edən nəqliyyat vasitələri deyil, elektriklə çalışan maşınlar, avtobus, qatarlar aid edilir. Ekoloji nəqliyyatın yaradılmasında Yaşıl enerjidən istifadə yəni təbiətin sərvətlərindən istifadə edərək nəqliyyat vasitələrindən istifadə etmək. Məsələn su nəqliyyatından istifadə etməklə enerji yanarmasının şahidi ola bilərik.

Turizmdə nəqliyyat növlərindən istifadə edilməsi qonaqların istəklərindən aslıdır ki, qeyd etdiyimiz nəqliyyat vasitələri hər biri onların səyahətini daha rahat etməsinə və görmək istədikləri yerlərə rahat şəkildə getmələrinə yardımçı olur. Turizmə olan marağın artması nəqliyyat vasitələrindən istifadə edilməsinə səbəb olmuşdur. Nəqliyyat vasitələrindən istifadənin ekologiyamız üçün mənfi və müsbət cəhətləri vardır. Mənfi cəhətləri daha çox olduğundan bu halların aradan qaldırılmasına çalışılır. Nəqliyat vasitələrindən kütləvi şəkildə istifadə edilməsi nəticəsinsə havanın çirklənməsinə səbəb olur. Çirklənmə zaman karbon qazı($CO_2$), azot oksidləri, kükürd oksidləri, yanacaqla işləyən maşınlardan partikulyar maddələr atmosferə daxil olur ki, bu da çirklənmənin böyüməsi deməkdir.

Ekologiyamızın təmizlənməsi üçün yaşıllaşdırma işlərinə geniş yer verilir. yaşıllaşdırma işləri ilə yanaşı ekologiyanın çirkləndirilməsində rolu olan nəqliyyat vasitələrindən istifadəni azaltmaq və çirklənmənin qarşısını alan alternativ nəqliyyat vasitələrindən istifdəni artırmaq lazımdır. Nəqliyyat vasitələrinin mənfi cəhətlərinə baxaq

- ✓ Karbon qazı ixrac edilməsi-Turizm nəqliyyat vasitəlindən istifadə edilməsi qeyd etdiyimiz kimi, iqlimin korlanmasında müəyyən rol oynayır. Hava nəqliyyatından

istifadə ekologiyanın çirklənməsində daha çox yer tutur. Uçuşların uzun müddət olması çirklənmənin faizini artırır. Həmçinin buraya gəmi səyahətlərini də aid etmək olar. Gəmi səyahətləri gəmilərin hərəkətə gətirilməsi üçün daxilində yerləşən qazanxanalardan çirkli tüstülərin havaya ixrac edilməsi nəticəsində ekologiyanın çirklənməsinə səbəb olur.

- ✓ Havanın çirklənməsi nəqliyyat vasitələrində yanacaqlardan istifadə edilməsi havaya azot, kükürt oksitlərinin ixrac edilməsinə səbəb olur.
- ✓ Suyun çirkləndirilməsi- yükdaşıma gəmiləri, neft gəmiləri və istirahət üçün daxilində restoranların və s. yerləşdiyi gəmilərin hərəkəti nəticəsində dənizə çirkli maddələr həmçinin zibbillər atılır ki, bu da dənizin çirklənməsinə səbəb olur.
- ✓ Torpaq sürüşməsi- yollarda aparılan təmir işləri, yeni tikililərin tikilməsi, torpağın beton örtüklərlə örtülməsi torpağın eroziyaya uğramasına səbəb olur. Torpaq sahələrnin insanların turizm sahəsində istifadə edə biləcəkləri hala gətirilməsi canlı təbiətin yaşama ərazisini qısaldır, onların məhv olmasına səbəb olur.
- ✓ Nəqliyyat vasitələrinin yaratdığı xüsusi səslər insanlara və heyvanlara mənfi təsirlər göstərir. Heyvanlar üçün bu səslər bir çox hallarda ölümlə nəticələnir ki, bunun qarşısını almaq üçün tədbirlər görülməlidir. Həmçinin nəqliyyat vasitələrinin yaratdığı səslər heyvanlarda və insanlarda hərəkət pozğunluğu, eşitməmə kimi mənfi nəticələr göstərə bilər.

***Sadalanan məlumatlarla yanaşı nəqliyyat vasitələrindən istifadənin müsbət cəhətləri də var.***

- ✓ Kütləvi nəqliyyat vasitələrindən istifadə edilməsi fərdi, xüsusi nəqliyyat vasitələrindən istifadəni azalda bilər.
- ✓ Elektronik nəqliyyatdan istifadə təbiətdə yanacaq, dizellə işləyən nəqliyyat vasitələrinin ifraz etdiyi yararsız qazların qarşısını ala bilər.
- ✓ Təbii enerjidən istifadə edilməklə yeni nəqliyyat vasitələri yaradıla bilər, həmçinin mümkün nəqliyyat vasitələrindən istifadə zamanı hava çirklənməsinin qarşısını almaq üçün yollarda yaşıllaşdırma işləri aparıla bilər ki, lazımsız qazların təbiətdə reaksiyaya girərək tez bir zamanda məhv olmasına səbəb olsun.

Nəqliyyat vasitələrindən istifadə zamanı yaranan mənfi halların aradan qaldırılması üçün bəzi tədbirlər görülməlidir ki, bunlara yanacaqla hərəkət edən maşınlardan imtina edərək enerji sərfiyatı ilə çalışan maşınlardan istifadə edilə bilər. Həmçinin ekologiyanın qorunması üçün dövlət tərəfindən ciddi nəzarət təşkil edilə bilər ki, buda ekologiyanın çirklənməsinin qarşısını alsın.

Qeyd edə bilərik ki, müsbət və mənfi cəhətlərin xüsusiyyətlərini sadalamağımıza baxmayaraq turizm sahəsində gəlir əldə etmək istəyən rəhbər şəxslər təbiətin çirklənməsinin heç bir zaman qarşısını almağa çalışmırlar. Nəqliyyat vasitələrindən istifadə zamanı alacaqları maadiyatı düşünərək daha çox fərdi nəqliyyat vasitələrinin kirayəsinə üstünlük verirlər. Turizmin inkişafında nəqliyyaın rolu

- ✓ Turizm bölgəsinin yenidənqurulması- regionda əsaslı dəyişiklilər edilməsi, yolların təmiri, iqtisadi inkişafın təmin edilməsi
- ✓ Yeni turizm obyektlərinin yaradılması- yeni turizm obyektlərinin yaradılması nəqliyyatdan istifadənin artmasına səbəb olur. Geniş şəkildə nəqliyyatdan istifadə iqtisadiyyatın inkişafında roll oynayır

Turizm nəqliyyatından istifadə zamanı turistlərə ekologiyanın qorunması üçün ciddi məlumatlar verilməlidir. Bu təsirlər vasitəsi ilə mənfi təsirləri minimuma endirilə bilər.

## 1.2.Turizm nəqliyyatından istifadənin əhəmiyyəti

Turizm sektorunda nəqliyyatından istifadə iqtisadiyyatımızın inkişafında mühüm rol oynamasına baxmayaraq ekologiyamızında korlanmasına səbəb olur. Nəqliyyat turizmin bir hissəsidir. Nəqliyyatdan istifadə insanların səyahətini daha rahat olmasına səbəb olur. Turistlərin istifadəsinə rahatlıq yaratmaqla bərabər iqtisadiyyatımızın inkişafına da təsir göstərir. Turizm nəqliyyatından kütləvi şəkildə istifadənin səbəblərinə baxaq.

1. Kütləvi turist axınının olması nəqliyyatdan istifadənin səmərəliliyini göstərir. Xarici ölkələrdən ölkəmizə gələn turistlərin rahat şəkildə əraziyə gəlməsi üçün təyyarə, qatar, avtobus və maşın kimi nəqliyyat vasitələrindən istifadə edirlər. Bu ölkə iqtisadiyyatına maadi gəlir deməkdir.

2. Turizmdə nəqliyyatdan istifadə edilməsi yeni iş yerlərinin yaranmasına səbəb olur. Proses kütləvi şəkildə turist axınının olduğu ərazilərdə mövcuddur. Məsələn ölkə ərasizinə və digər ölkələrə insanların səyahət etmələri üçün hava limanları(Heydər Əliyev adına Beynəlxalq hava limanı), avtovağzallar yaradılmışdır.

Turizm nəqliyyatının mövcud olması iqtisadiyyatımızın inkişafında rolu danılmaz gerçəkdir. Nəqliyyatın inkişafı, İqtisadiyyatın inkişafına dəstək- turistlərin nəqliyyatlarla daşınması, buraya hava, su, yer nəqliyyatları aiddir ki, hər biri iqtisadiyyatımızın inkişafında özünü göstərir. Nəqliyyatdan istifadə yalnız hava limanlarında, avtovağzallarda deyil turizmin mövcud olduğu. İnkişaf etdiyi və inkişafda olan otel, restoranlarında da kütləvi şəkildə tələbata məruz qalır. Turistlərin otellə yerləşdirilməsi, otellərdən digər turistik məkanlara aparılması, tarixi yerlərə ziyarət, mədəniyyət sarayları, muzeylərə səyahət zamanı nəqliyyatdan kütləvi şəkildə istifadə edirlər. Hava nəqliyyatı ən gəlirli nəqliyyat növüdür. Xarici turistlərdən əldə edilən gəlirlər quru və dəniz nəqliyyatından alınan gəlirdən daha çoxdur. Gəliri çox olmasına baxmayaraq ekologiyanın çirklənməsinə səbəb olan əsas nəqliyyat vasitəsidir.

Beynəlxalq çərçivədə ölkə turizm sektorunun irəliləməsi xaricdən mailyə axına səbəb olur. Tur şirkətlərin yaratmış olduğu turizm paketlərinə uyğun şəkildə ölkəyə turist axını baş verir. Xarici turizmin inkişaf etməsi daxili turizmin gətirdiyi iqtisadi gəlirdən daha çoxdur.

1. Regionun, bölgənin inkişafı- turizmin mövcud olduğu bölgələrdə nəqliyyat çox vacib faktordur. Bəzən turizmin mövcud olduğu regionlar daha uzun məsafələrdə yerləşdiyinə görə ancaq nəqliyyat vasitələri ilə ziyarət etmək mümkündür. Dağlıq ərazilərdə yerləşən turizm obyektlərinə rahat şəkildə gedə bilmək üçün kanad xətlərindən istifadə edirlər ki, bu da insanların səyahətlərini yalnız yolu qısaltmaqları üçün deyil həmçinin ekskursiya xarakteri də daşıyır və ən əsası daha əyləncəli hala gətirir.
2. İnfrastrukturun inkişafına- sahədə turizmin inkişafı turizmə daxil olan hər bir nəqliyyat vasitəsinin də müasit formalarının istifadəsini gərəkdirir.

3. Mədəniyyətimizin inteqrasiyasına səbəb olur. Turistlərin ölkələr arası səyahətləri, həm daxilə gələn, həm də xaricə gedən turistlərin mədəniyyətlərin daşınması, mədəniyyətlər arası inteqrasiyanın yaranmasına səbəb olur

Turizmin inkişafında nəqliyyat vasitələrindən istifadə edilməsi həm turizm sahsinin aparıcı olduğu müəsisələrdə, həm də yerli insanların maadiyatının artmasında mühüm rol oynayır. Turizm nəqliyyatından istifadə edilməsi insanların işsizliyinin aradan qalxması və gəlir əldə etməsi kimi müsbət tərəfləri vardır. Bir çox turizm ərazilərində yerli əhali turistlər pullu xidmət göstərmək məqsədi ilə öz nəqliyyat vasitələrindən istifadə edərək pul qazanırlar. Turizm sahəsinin gəlirli sahə olduğunu bilərək insanlar maadi tələbatlarını ödəmək üçün sahədə aktivlik göstərirlər. Nəqliyyat vasitəsindən istifadə edilməsi şəxsi sahibkarın birbaşa gəlir əldə etməsinə səbəb olur. Turizm sektorunda turistlərin daşınmasında əsas mövqe tutan turizm nəqliyyatı insanlar arasında məşğulluq imkanları yaradır. Məşğulluq imkanları isə iki yolla baş tutur.

- ✓ Hava yollarında, gəmi idarəçiliyi, turizm sektor sürücüləri birbaşa turizmin iştirakçısı olduqlarına görə onlar daimi işlə təmin olunurlar.
- ✓ Sezonla əlaqədar olaraq artan turist axının daşınması, müəssisə daxili yük daşınmasında istifadə edilən nəqliyyat vasitələrinə tələbat məşğulluq imkanlarını artırır.

Ekologiyamızın qorunması üçün bir sıra tədbirlər görülməlidir ki, gələcəyimizin həyat şəraiti düzgün şəkildə qura bilək. Yaşıl enerjidən(günəş, su, külək enerjisi) istifadə etməklə mənfi iqlim dəyişikliklərinin qarşısını alaraq təbiətimizi qoruya bilərik. Nəqliyyatın istifadə edilməsi ekologiyanın çirklənməsində olan səbəblərdən biridir. Nəqliyyatların yanacaqlardan istifadə edilməsi havaya müxtəlif zərərverici qazların qarışmasına səbəb olur ki,bu proses qarşısı alınmayacaq problem deyil. Avropanın inkişaf etmiş ölkələrində elektromobillərin istehsalının artırılmasına xüsusi diqqət ayrılır ki, iqlim dəyişikliyinin faizini minimuma endirilsin. 2023-cü ilə Almaniya və Yaponiya kimi ölkələr qarşısında 2050-ci ilə qədər bu hədəfə çatmaq məqsədi güdür. Həmçinin günmüzdə elektriklə işləyən maşın istehsalında Çin öndə gedir. bir çox dünya ölkələri bu

yolda səylə çalışır. Elektrikli nəqliyyat vasitələrinin mənfi hallarıda vardır ki, bu nəqliyyatın elektrik bateriyalarının doldurulması üçün hər yerdə mümkün dayanacaqlar mövcud deyildir. Yaşıl enerjdən istfadə üçün bəzi hallara nəzər salaq.

Elekriklə işləyən nəqliyyat vasitələrinə bir sıra növləri verə bilərik ki, hər birindən istifadə edilməsi,  çirklənmə nəticəsində baş verən iqlim dəyişməsinin qarşısı ala bilər.

1. Turizmin təşkil edilməsində istifadə edilən nəqliyyat vasitələrində Yaşıl enerji mənbələrindən istifadə edilməlidir. Elektronik maşınlar, elektrikli avtobuslardan, qatarlardan istifadə edilə bilər. Turizm sektorunda elektronik sistemdən itifadə yalnız yaşıl enerjidən istifadə deyil, həmçinin yaranan səs-küyün də aradanqaldırılmasında yardımçı olur.
2. Gəmilərin və qayıqların istifadəsində yaşıl enerjidən istifadə edilməsi suyun təmizlənməsində yardımçı rola malikdir.

Günəş enerjisindən istifadə edilmənin müsbət hallarına nəzər salaq.

1. Tükənməz olduğundan enerjinin bərpasına vaxt sərf edilmir.
2. Elektrik istehsalında mühüm yer tutur ki, bu da elektrikli maşınlardan istifadəni rahat hala gətirir. Elektromobillərdən istifadə edilməsi ekologiya çirklənməsinin qarşısının alınmasında əvəzolunmazdır. Hazırda respublikamızda geniş yayılmasa da istifadə edilməsi üçün səylər göstərilir.
1. Enerjidən istifadə edilməsi üçün günəş panellərindən istifadə edilir ki, günəş şüalarını enerjiyə çevirir.
2. Günəş enerjisiylə çalışan nəqliyyat vasitələrinin istifadəsi günəşin daha çox olduğu yerlərdə istifadəsi məqsədəuyğundur.
3. Turizm obyektlərində günəş panellərinin tətbiqi işin əlverişli şəraitə gətirilməsinə yardımçı olur

Turizm nəqliyyatında çirklənməni maksimum azaltmaq üçün digər bir enerji növündən istifadə etmək mümkündür. Bitki örtüyü, tullantılardan istifadə olunaraq enerji yaradılması və sudan istifadə edilərək buxar maşınlarından istifadəni də aid etmək olar.

***İnkişaf etmiş turizm nəqliyyatında vacib amillər:***

**Ağıllı idarəetmə:** nəqliyyat sisteminin optimallaşdırılması üçün idarəetmə sistemindən istifadə edilir.

**Elektron biletlər**: nəqliyyatdan istifadəni sürətləndrmək üçün elektron bilet sisteminin tətbiq edilməsi. Ekologiyanın çirklənməsinin qarşısı almaqüçün kağız istifadəsini azaltmaq

**Dayanacaq sistemləri:** nəqliyat sisteminin enerji istifadəsinin azaldılmasında istifadə edilir. Dayanacaqlarda məlumatlndırıcı elektronik lövhələrdən istifadə edilir.

Sürücü istifadə etmədən yeni nəsl avtomobil və avtobuslardan istifadə edilməsi turistlərin özlərini daha güvən hiss etmələrinə və aldadılmaqlarının qarşısın alır.

Həmçinin yaşıl enerjidən istifadə etməklə həm ekologiyanın çirklənməsinin qarşısı alınır, həm də turizmdə qonaqların mümkün məkana vaxtında çatdırılması təmin edilir.

İqtisadiyyatın inkişafında turizm sektorunda nəqliyyatdan istifadə edilməsinin rolu vardır. Nəqliyyatdan istifadə edilməsi turizm ərazilərinin kəşf edilməsinə, obyektlərə turistlərin cəlb edilməsinə kömək edir. Həmçinin qeyd edə bilərik ki, turizm şirkətləri mövcuddur ki, bu şirkətlər turlar təşkil edirlər. Turlar vasitəsilə yerli və əcnəbi turistlərin axınını tənzimləyirlər. Turlarda avtobuslardan, təyarə və qatarlardan istifadə edilməklə həm turistlərin daşınmasını tezləşdirir, həm də ekologiyanın çirklənməsinin qarşısını qismən də olsa alır.

Ekologiyamızın çirklənməsinin qarşısını almaq üçün alternativ nəqliyyat vasitələrindən istifadə edilməlidir. Nəqliyyatdan istifadə zamanı zərərli qazların yaranması nəticəsində ekologiyada kütləvi çirklənmə baş verir. Nəqliyyat vasitələrindən turizmdə kütləvi şəkildə istifadə edildiyinə görə bu sahədə ekologiyamızın çirklənməsinin qarşısını almaq üçün nəqliyyat vasitələrindən istifadə edilməlidir. Ekologiyamızın çirklənməsinin qarşısını almaq üçün alternativ nəqliyyat vasitələrinə baxaq.

1. Velosiped- nəqliyyat vasitəsindən bir sıra insanlar dünya turuna çıxaraq turistik səyahətlərini edirlər. Nəqliyyat vasitəsindən istifadə ekologiyanın çirklənməsinə 0% mənfi təsir göstərir. Velosipedlərdən istifadə zamanı zərərli qazlar yaranmır, karbon

emissiyası ümumiyyətlə yaranmır. Velosipedlə səyahət edilməsi yalnız gəzinti üçün deyil həmçinin sağlamlığın qorunmasında da faydaıdır. Lakin bunu da qeyd edək ki, bu nəqliyyat vasitəsi məsafənin qəth edilməsində uzun vaxt sərf rdilməsinə səbəb olur. Həmçinin turizm zonalaında kütləvi şəkildə velosiped gəzintilərinə çıxılır.

2. Elektriklə işləyən skuterlər- skuterlərdən istifadə edilməsi zamanı uzun yollar qəth edilməsə də turizm zonasının tanıdılması, səyahətin daha maraqlı edilməsində yardımçı vasitələrdən biridir.

3. Qayıq və kanoelər- dəniz və göllərin çirkləməsinin qarşısının alınmasında alternativ yodur. Həmçinin günəş enerjisi ilə işləyən qayıqlardan da istifadə edilə bilər. Yanacaqla işləməyən bu növ dəniz nəqliyyatı dəniz çirklənməsinin qarşısını alır.

4. Hibrit tipli avtomobillər- bu avtomobillər turistlərin səyaət etməsinə, həmçinin turistlərin qarşılanması onların yerləşdirilmsi, turizm obyektlərinə apaılması, tarixi yerlərə səyahət, mədəni abidələrə ziyarət edilməsində effektiv vasitədir.

5. Günəş enerjili nəqliyya vasitələri- günəş enerjisiylə çalışan bu nəqliyyat növləri daha səmərəli olsa da günəşin daha çox olduğu bölgələrdə daha effektiv nəqliyyat üsuludur.

6. Funkliyor- elektronik sistem olan bu nəqliyyat qısa məsafələri əhatə etsə də turizm sahəsində effekti böyük ola bilər.

7. Elektrikli qatarlar- sadalanan nəqliyyat vasitələrindən ən effektvi və alternativi deyə bilərik. Qatarlardan istifadə edilməsi ilə kütləvi turist daşınmasına, karbon emissiyasının azaldılmasına, uzun məsafələrin qəth edilməsinə səbəb olur.

8. Heyvanlardan istifadə- at, dəvə, fil, dəvəquşu, it kimi heyvanlardan minik vasitəsi kimi istifadə edilərək həm səyahətin daha maraqlı olmasına, həm də iqlim çirklənməsinə səbəb olan nəqliyyat vasitələrindən istifadənin azaldılmasına səbəb ola bilər. Hindistana səyahət edən turistlərin fillər vasitəsilə gəzintiyə çıxdığını, BƏƏ-də dəvə, atların yardımı ilə turlar təşkil olunaraq insanlara tarixin izlərini xatırlatmaqla yanası ekoloji problemlərin də aradan qaldırılmasına yardımçı olur. Finlandiya, isveçirə, Danimarka kimi Avropa ölkələrində qış aylarında turizmdə itlərdən istifadə edirlər ki, qarlı ərazilərdə yollarda irəliləməkdə yardımçı olmaqla yanaşı onların tarixi əylənçələrinin bir parçası olan itlərdən nəqliyyat vasitəsi kimi istifadə xatırladılır.

9. Piyada gəzinti- piyada səyahətə çıxmaq səyahətçinin turizm sonasındakı obyektlərə gedə bilməsinə yardımçı olur. Lakin piyada gəzintiyə çıxılması yalnız qısa məsafələrdə alternativ ola bil. Hər bir turist piyada gəzintiyə üstünlük vermir bu səbəbdəndir ki, bu üsul çox da alternativ deyil. İnsanlar gəzinti zamanı daha rahat üsullardan istifadə etməyi üstün tuturlar.

Elektronik sistemlə idarə edilən nəqliyyat vasitələrindən stifadə edilməsi şəhər daxili və şəhərlərarası səyahətlərdə daha üstün vasitəyə çevrilməlidir. Elektronik sistemlərdən istifadə edilməsi yalnız məsafənin deyil həmçinin karbon emissiyasının azaldılmasında, sıfıra endirilməsində əsas rol oynayır. Ekologiyanın çirklənməsinin qarşısını almaq üçün təmiz nəqliyyat yəni elektron və ya günəş enerjisi ilə çalışan nəqliyyatların yaradılması karbon emissiyasının sıfıra endirilməsinə, iqlim dəyiikliklərinin qarşısının alınmasına səbəb olur. Həmçinin yenidən emal oluna bilən yaşıl enerjidən istifadə zərərli qazların ixrac edilməsinin qarşısını alır.

Turizmin idarə olunmasında turizm nəqliyyatının rolu olduğundan turizm nəqliyyatının idarə edilməsində insan faktorunun rolu böyükdür. Turizm nəqliyyatı turizm sektorunun bir hissəsi olduğundan turistlərin səyahət təcrübəsinin əsasını təşkil edir. Turizm nəqliyyatının idarə olumasındakı məqsəd turizm sektorunun canlanması prosesini sürətləndirməkdir. Bununla yanaşı bir sıra məqsədlərdə mövcuddur ki, bunlara nəzər salaq.

- ***Səyahətçinin təhlükəsizliyinin təmin edilməsi:*** turistlərin hüquq və vəzifələrinin qorunması əsas məqsəd olmalıdır.
- ***Sistemli təşkilatçılıq:*** turistlərin daşınması, onların müəssisələrə yerləşdirilməsi prossesinin sistemli təşkil edilməsi və yaranacaq mümkün sıxlığın aradan götürülməsi vacib amildir. Nəqliyyatdan rahat və sistemli şəkildə istifadə edilməsi üçün cədvəl qurulmalıdır. Cədvəl əsasında insanlar səyahətlərini sistemli təşkil edə bilərlər.
- ***Ekoloji təmizliyin təmin edilməsi:*** Turistlərin ekologiyamıza təsir göstərməyəcək nəqliyyat vasitələrindən istifadəyə yönləndirilməsi.

- ***Rahatlığın təmin edilməsi:*** nəqliyyat vasitəsinin növündən aslı olmayaraq səyahətçinin rahatlığının təmin edilməsi.
- ***Nəqliyyatın növləri arasında sistemli əlaqənin yaradılması:*** nəqliyyatın hər bir bölməsinin ekoloji inkişafyönümlü olmasını təmin etmək lazımdır.

Ekoloji çirklənmənin qarşısını almaq üçün turizm nəqliyyat sistemində ekoloji cəhətdən mənfi təsirlərə malik olmayan nəqliyyat vasitələrinin tətbiqi əsas məsələdir. Respublika ərazisində yolların təmir vəziyyətinin yaxşı olmaması səbəbindən nəqliyyat vasitəsindən istifadə şərtləri çətin vəziyyət alır. Turizm yalnız turizm obyektlərinin tanınması, inkişaf etdirilməsi və həmçinin turistlərin diqqətini cəlb etmək üçün investisiya qoymaqdan ibarət deyil. Turizmin mərkəzinə gedə bilmək, mərkəzlərin tanıdılması, müştərilərin istirahətinin səmərəli şəkildə təşkili üçün rahat, konfortlu yolların çəkilməsini də zəruri edir.

# II FƏSİL. TURİZM NƏQLİYYATININ İQTİSADİ VƏ EKOLOJİ TƏSİRLƏRİ

## 2.1. Turizm nəqliyyatının iqtisadi inkişafdakı rolu

Turizm iqtisadiyyatın bir parçası olmaqla yanaşı əsas gəlirli sahəsi olmaq üçün inişaf yolundadır. Turizm sisteminin inkişafında isə turizm nəqliyyatı böyük rol oynayır. Nəqliyyat vasitələri turizmin əsas obyekti olan insan faktorunun səyahət etməsini təmin edir. Turizmin inkişafında nəqliyyatın rolu danılmaz olduğuna görə iqtisadiyyatımızda mühüm əhəmiyyətə sahibdir.

1900-cu ildə dünyada 6 min avtomobil var idisə, 1950-ci ildə bu rəqəm 62,3 milyon, 60-cı illərin əvvəlində 203 milyon, 1970-ci ildə 246 milyon olmuşdur. XXI əsrin əvvəlində dünyada 140 milyon yük Avtomobil nəqliyyatının sürətli inkişafı nəqliyyat sektorunda rəqabət mübarizəsini genişləndirmiş, sərnişin və yük daşınmalarının strukturunda ciddi dəyişikliklərə səbəb olmuşdur. 2000-ci ildə avtonəqliyyatla 3500 milyard ton yük daşınmışdır. Bu nəqliyyat növü ilə sərnişin daşınması 10620 milyard sərnişin olmuşdur.[ Zahid Məmmədov, XXI əsr: iqtisadi inkişafin nəqliyyat faktoru, BAKI – 2002 s,11]

Turizm gəlirlərinin əsas parçası kimi- nəqliyyat günümüzün ayrılmaz parçası olmaqla yanaşı turizmin inkişafında əsas rol oynayır. Turizmdə hava nəqliyyatından istifadə edilməsi nəticəsində ölkə iqtisadiyyatına yüksək məbləğdə gəlir daxil olur. Turizm sistemi gəlirlərin 30%-ə qədərini turizm nəqliyyatından, əsas hissəni isə nəqliyyatın bir qolu olan hava yollarından daxil olur. Bu gəlirin əldə edilməsində isə turizm şirkətlərinin rolu böyükdür.  Turizm sahəsində nəqliyyat vasitələrindən ancaq sərnişin daşınmasında deyil, yük daşınmasında da istifadə edilir. Turizm nəqliyatının yerinə yetirdiyi vəzifələrə nəzər salaq

1. Yük daşınması (ünvanlar arası çatdırılma)
2. Yerdəyişmə
3. Turistlərə ərazini gəzdirmək
4. İstirahət xarakterli daşıma

Turizm sektorunda turistlərin ünvana çatdırılması prosesində nəqliyyatın 3 növündən istifadə edilir.

- ✓ Hava yolları nəqliyyatı: kütləvi turist axının ölkəyə daxil olması və ölkədən getməsi prosesini həyata keçirən əsas nəqliyyat yollarıdır.
- ✓ Quru yolları nəqliyyatı: avtomobil, dəmir yolu vasitəsilə insanların səyahət etməsinə yardəmçı olan nəqliyyat yollarıdır.
- ✓ Dəniz yolları nəqliyyatı: dəniz, göl, çaylar vasitəsilə su nəqliyyat vasitələrinin köməyi ilə insanların səyahət etməsində rol oynayan nəqliyyat yollarıdır.

**Şəkil 2.1.**







[https://www.stat.gov.az/source/tourism/az/002_2.xls]

Sektorun inkişafı tur şirkətləri ilə müqavilələrin bağlanmasına səbəb olur. Nəqliyyat sisteminin turizmin gəlir gətirməsində payı son illərdə yüksəkdir. Azərbaycan Dövlət statistika Komitəsinin turizm sektoru üzrə nəqliyyat vasitələrindən istifadə faizində fərqlər mövcuddur. 2023 və 2024-cü illərin statistikasına nəzər yetdikdə nəqliyyat vasitələrindən istifadənin faiz olaraq dəyişildiyini görə bilərik. 2023-cü ildə hava nəqliyyatından istifadə 75,9% təşkil edirdisə 2024-cü ildə bu faiz aşağı düşərək 69,5% faiz təşkil etmişdir. Dəmir yolu və dəniz nəqliyyatı vasitələrində də eyni hadisənin şahidi ola bilərik. Dəmiryolu nəqliyyatından 2023-cü ildə 22,9% istifadə edilirdisə 2024-cü ildə 28,4% təşkil etmişdir. Nəticə olaraq ekologiyamızın çirklənməsinin qarşısını alınması üçün hava nəqliyyatından istifadənin faizi aşağı salınmışdır.

2023-2024-cü il nəqliyyatdan istifadə faizini nəzərə alaraq ekologiyanın qorunması üçün son bir il ərzindən görülən işlər təqdirəlayiqdir. Ekologiyanın çirklənməsində ən çox rolu olan hava nəqliyyatından istifadənin olduğunu bilərək nəqliyyatın növündən istifadəni azaltmaq lazımdır və ya alternativ nəqliyyat

vasitələrindən istifadə edilməlidir. Bildiyimiz kimi son illərdə nəqliyyat vasitələrinin istifadəsində yanacaqla və digər zərərli maddələrdən istifadə edilən nəqliyyat vasitələrindən istifadə azaldılmasına çalışılmışdır. Elektiklə işləyən maşınların istifadəsinə çalışılmışdır.

Nəqliyyat vasitələrindən istifadəyə görə sərnişinlərin istəkləri fərqlidir. Bir çox hallarda isə maadiyyatından aslı olaraq insanların nəqliyyat seçimi fərqlənir. Rəsmi statistik göstəricilərə görə nəqliyyat vasiələrinin hər bir növünə müraciət edilir ki, buradan əldə edilən gəlir iqtisadi yüksəlişdə önəmli mövqe tutur. Rəsmi statistikaya görə ölkəyə gələn və ölkədən xaricə səyahət edən turistlərin nəqliyyat vasitələrindən istifadəsində üstünlüyü hava nəqliyyatı tutur. 2023-cü ildə Respublikamıza səyahət edən xarici ölkə vətəndaşlarının istifadə etdiyi nəqliyyat vasitələrindən istifadəsinə görə hava nəqliyyatından 14 901 000 insan istifadə etmişdir. Su nəqliyyatından istifadə edən sərnişinlər isə 2 69 000 nəfər təşkil etmişdir. Su nəqliyyatından istifadə bir çox illərdə öz statistikasını qoruyur. Ölkə daxilə gələn xarici vətəndaşlar kimi ölkəmizdən xaricə gedən vətəndaşların da hava nəqliyyatından daha çox istifadə edirlər. Hava nəqliyyatından istifadə edilməsi zamanın az sərf olunmasına səbəb olduğuna görə insanlar hava nəqliyyatına daha çox üstünlük verirlər. Baxmayaraq ki, hava nəqliyyatından istifadə olunması daha çox maddiyat tələb edir. Ölkə daxilindən xaricə gedən sərnişinlərin az istifadə etdiyi, demək olar ki, istifadə etmədiyi nəqliyyat vasitəsinə dəniz nəqliyyatı aiddir. Lakin ölkə daxilinə dəniz nəqliyyatıdan istifadə edərək daxil olan vətəndaşların sayı 2023-cü ildə 339284 nəfər olmuşdur.

Müasir elektriklə çalışan dəmiryol nəqliyyatından istifadə edilməsi daha məqsədəuyğun hesab edilə bilər. Dəmiryollarında sürət qatarlarından istifadə edilməsi həm məsafənin daha qısa zamanda qəth edilməsinə, həm də maddiyyatın az sərf olunmasına yardımçı ola bilər. İnsanları nəqliyyat vasitələrindən istifadə etmələrində onların düzgün nəqliyyat vasitələrindən istifadə etmələrinə yönləndirilməsi çox vacibdir. Turizm sektorunda ekologiyanın çirklənməsinin qarşısını almaq üçün xüsusi nəqliyyat vasitələrinin seçilməsi çox önəmlidir.

Səyahətçilərin düzgün şəkildə məlumatlandırılması üçün turizm sektorunda çalışan işçilərin mövzu haqqında bilikli olması vacibdir. Səyahətçilərin qarşılanması,

onların turizm obyektlərinə yönləndirilməsi işi turoperatorların üzərinə düşür. Turoperatorların isə məqsədi yalnız maadi gəlir olmamaqla yanaşı ekologiyamızın təmizlənməsində müəyyən mövqe tutmaqdır. Bu işlə turizm sektorunda fəaliyyət göstərən turizm agentliklərinin nümayəndələri olan turoperatorlarının fəaliyyəti məqsədəuyğundur.

Bir çox tur şirkətlərinin hazırlamış olduqları səyahət paketləri mövcuddur ki, insanlaın səyahət etmək üçü nəqliyyat vasitələri, gecələmək üçün yer, qidalanma və s. kimi ehtiyac olan məlumatlar əks olunur. Paketlərdə nəqliyyat vasitələrinin alternativ nəqliyyat vasitəsinin olması, ekologiyamızın çirklənməsində az rol oynayan və ya çirklənmə prossesində iştirak etməyən nəqliyyat vasitələrindən istifadə olunması tövsiyyə olunmalıdır. Həmçinin nəqliyyat vasitəsinin seçilməsi səyahətçinin hüququdur. Lakin paketlərdə xüsusi məlumatlar qeyd edilməlidir ki, səyahətçi mesaj vasitəsilə ekologiyamızın çirklənməsinə səbəb olan prosseslərin qarşısının alınmasında iştirak etsin. Məsələn: Daha təmiz gələcək üçün düzgün seçimlər edərək, burada xüsusi rəsmlər qeyd edilə bilər. Hansı ki, məlumat tam şəkildə anlaşılsın.

Dünya ölkələrinin turizm nəqliyyatından gəlir əldə etdiyi əsas nəqliyyat növlərinə hava, gəmi və qatarlardır. Hava nəqliyyatı demək olar ki, dünyanın bir çox ölkələrində turizm sahəsi üzrə gəlirin ən çox əldə edilən nəqliyyat növüdür. Lakin okeanlara dənizlərə çıxışı olan ölkələrdə isə kruiz gəmilərindən alınan gəlir heç də az deyildir. Kruiz gəmiləri daxilində otellərin, restoran, əyləncə mərkəzləri yerləşən turizm gəmiləridir ki, insanların səyahət etməsi üçün lazımlı bir çox keyfiyyətləri özündə birləşdirir. Dünyanın bütün ölkələrində olmasa da bir sıra ölkələri bu cür gəmilərə sahibdir. Onların arasında “Disney dream”, “Celebrity Reflection”, “Viking Star” kimi kruiz gəmiləri özündə bir çox turizm obyektlərini birləşdirir. Kruiz gəmilərinin həcminin böyüklüyü və dənizlərə hərəkət zamanı atılan tullantıların çoxluğu və həmçinin gəmilərin hərəkəti zamanı yaranan karbon emisiyası səbəbindən iqlim çirklənməsi yaranır.

Dəniz nəqliyyatından istifadə, dənizin təmizliyinin, insanların təhlükəsizliyinin qorunması haqqında BMT-nin Konvensiya qəbul edilmişdir. Konvensiya 1958-ci ildə Cenevrədə hazırlanmış, 1962-ci ildə isə qəbul edilmişdir. Sənəd İngilis, Rus, İspan və Fransız dillərində dərc edilmişdir. Ekologiya haqqında Azərbaycan respublikasının

qanununa əsasən

1.0.9.atılmanın (tullantının) texniki normativi – zərərli maddələrin stasionar və səyyar mənbələri, o cümlədən nəqliyyat vasitələri, texnoloji proseslər və avadanlıqlar üçün məhsul vahidinə, yürüşə, mühərrikin gücünə görə hesablanan atmosfer havasına atılan zərərli maddələrin yol verilən maksimum həcmini və digər göstəriciləri müəyyən edən normativ;

4.0.8. yanacağın, texniki qurğuların, texnoloji proseslərin, mühərriklərin, nəqliyyat və digər səyyar vasitələrin, avadanlıqların atmosfer havasının mühafizəsinə dair tələblərə uyğun olmasını təsdiq edən sertifikatlaşdırmanın qaydalarını müəyyən etmək.[ https://e-qanun.az/framework/3852]

Nəqliyyat insanların uzun və qısa məsafələri qəth etmələrinə yardımçı olmaqla yanaşı iqtisadi inkişafın təmin edilməsi yolunda əhəmiyyətli rola malikdir.

## 2.2. Ekoloji cəhətdən dayanıqlı nəqliyyat sistemlərinin tətbiqi

Kainatımızın çirklənməsi nəticəsində dünyamız hər ötən gün yaşamaq üçün çətin bir yer olmağa başlayır. Qlobal istiləşmələr ekologiyamızın çirklənməsinin nümunəsidir. Ekoloji çirklənmənin səbəbkarlarının başında insan dayanır. İnsanların rahatlığına yönəldilmiş, yaşam keyfiyyətlərini artırmaq üçün yaratmış olduqları texnologiyalar ekoloji çirklənməyə səbəb olur. Yaratmış olduqları texnologiyalardan biri də nəqliyyat vasitələridir. İnsanlar nəqliyyat vasitələrindən müxtəlif məqsədlər üçün istifadə edirlər, kimisi iş, kimisi səyahət, kimisi yarış məqsədli. Məqsədindən aslı olmayaraq nəqliyyat çirklənmələrinin azaldılması və qarşısının alınması üçün təməl tədbirlər görülməlidir. Son illərdə bütün dünyada bu yolda addımlar atılır.

İqtisadiyyatın bir çox sahələrində olduğu kimi turizm sektorunda da nəqliyyat vasitəsi geniş şəkildə istifadə edilir. İstər ekoloji çirklənməyə səbəb olan, istərsə də çirklənmənin qarşısını alan nəqliyyat vasitələri geniş vüsət almaqdadır. Turizmin fəaliyyəti təmin olunan regionlarımızda turizmin növündən aslı olaraq turizmin yerləşdiyi obyektlərə getmək üçün, adrenalin, idman məqsədli nəqliyyat vasitələrindən istifadə edilir. Ünvana getmək üçün regionlarda müxtəlif nəqliyyat vasitələrindən istifadə ön plandadır.

Dağlıq regionlarda yerləşən turizm obyektlərində elektriklə çalışan kanad xətlərindən istifadə edilir. Kanad xətlərinin ilkin məqsədi dağlıq ərazilərdə yerləşən turizm obyektlərinə gedilməsini rahat şəkildə təşkil etməkdir. Dünyanın bir çox regionlarında Şimali Amerika, Cənubi Amerika, Avropa, Afrika, Asiyada geniş yayılmış turizm nəqliyyatı olaraq tanınan bu nəqliyyat növü ölkəmizdə də son illərdə geniş şəkildə tətbiq edilməyə başlanılmışdır. Qusar Şahdağ-qış-yay turizmi, Qəbələ Tufandağ qış-yay turizmi, Naçıvan Muxtar Respublikasında Haçadağ turizm regionlarında fəaliyyət göstərən turizm kanad xətlərinə rast gələ bilirik. İstifadə edilən bu xətlər yalnız ünvana çatdırılma xarakteri daşımır həmçinin səyahət, ətraf mühitin izlənilməsində faydalı vasitələrdəndir. Kanad xətlərindən istifadə baha başa gəlsədə ekoloji cəhətdən daha uyğun nəqliyyat növüdür.

Turizm sektoru ölkəmizin əsas gəlir sahəsi olmaq yolunda davam edir. Turizmin əsas gəliri gələn qonaqlardan əldə edilir. Qonaqların qarşılanması, onların regionla tanış edilməsi üçün vacib olan vasitələrdən biri nəqliyyatdır. İstər yerli, istərsə xarici turistlərin zona ilə tanış edilməsində nəqliyyat önəmli mövqe tutur. Daxili turistlərin bir çox şəxsi nəqliyyat vasitələrindən istifadə etdiklərinə görə nəqliyyat sahəsi üzrə onlardan maadi gəlir əldə etmək çox aşağıdır. Ölkə daxilinə səyahət edən əcnəbilərin qarşılanması, onların rahatlığının təmin edilməsi turizm sektorunun vəzifəsidir. Atmosfer havasının mühafizəsi haqqında Azərbaycan Respublikasının qanunun 15-ci maddəsinə əsasən sahə üzrə turistlərə xidmət göstərən nəqliyyat vasitələrindən istifadə də atmosferə zərərli maddələrin atılmasının qarşısı alınmalıdır və aşağıdakı qaydalara əməl edilməlidir.

15.1. Atmosfer havasına atılan zərərli maddələrin miqdarı və tərkibi qanunvericiliklə müəyyən edilmiş atılmanın texniki normativlərindən artıq olan nəqliyyat və digər səyyar vasitələrin istismarı qadağandır.

15.2. Müvafiq icra hakimiyyəti orqanları nəqliyyat və digər səyyar vasitələrinin istismarı zamanı atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılmasını təmin edən tədbirlər həyata keçirməlidirlər.

15.3. Müvafiq icra hakimiyyəti orqanları nəqliyyat və digər səyyar vasitələrin yaşayış məntəqələrinə, istirahət, turizm yerlərinə, sağlamlıq və səhiyyə obyektlərinə girişini məhdudlaşdıra, nəqliyyat vasitələrinin hərəkətini tənzimləyə bilərlər.

15.4. Atmosfer havasına nəqliyyat və digər səyyar vasitələrindən atılan zərərli maddələrin atılmanın texniki normativlərindən artıq olmamasına nəzarət qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.[ https://e-qanun.az/framework/3515]

Azərbaycan Respublikasının təbiəti geniş, müxtəlif iqlim qurşaqlarında yerləşməsi onun turizm sektorunda irəliləməsində müsbət təsir göstərir. Təbiətinin genişliyi onun qorunması üçün də yüksək səylər göstərməsinə səbəb olur. Ekologiyamızın qorunması üçün nəqliyyat vasitələrindən istifadə zamanı bir sıra tövsiyyələr verilə bilər ki, bu tövsiyyələr ekoloji baxımdan təmiz turizm nəqliyyatının tətbiqinə səbəb olsun. Azərbaycanda turizm obyektlərinin və iqlimin qorunması üçün ölkə daxili istifadə edilə biləcək turizm nəqliyyatlarına baxaq.

1. Ekologiya çirklənməsinin qarşısını almaq üçün Velosiped yollarının çəkilməsinə xüsusi diqqət artırılalıdır. Ölkə ərazisində daha çox Bakıda xüsusi velosiped yolları çəkilir ki, velosipeddən istifadə edilərək çirklənmənin qarşısı alına bilsin. Velosipedlərdə istifadə edilərək turizm zonalarına xüsusi turlaş təşkil edilə bilər və ya turzmin fəaliyyət göstərdiyi regionlarda (Qəbələ, Balakən, Oğuz, Lənkəran və s.) velosiped nəqliyyatlarının sayları artırılmalı və velosiped yolları yaradılmalıdır. Velosipeddən istifadə zamanı heç bir zərərli qazların, karbon emissiyasının yaranması müşahidə edilmir. Velosipedlər ekologiyamız üçün çox səmərə verən nəqliyyat vasitəsidir. Velosipedddən istifadə yalnız ekologiyanın çirklənməsinin qarşısı alınmır, həmçinin insanların sağlamlıq imkanları təmin edilir.
2. Müasir dövrümüzün ən sevilən və ən çox istifadə edilən nəqliyyat vasitəsi maşınlar və avtobuslardır. Elektriklə çalışan nəqliyyat vasitələrinin istifadəsi zamanı yenidən emal oluna bilən enerjidən istifadə edilərək nəqliyyatların istifadəsi təmin edilir. Ölkəmizdə elektriklə çalışan nəqliyyat vasitələrinə daha çox Bakı ərazisində rast gəlinir. COP29 iqlim konfransında ölkə ərazisində elektriklə işləyən

avtobuslar turistlərə regionun tanıdılmasında kütləvi nəqliyyat vasitəsi kimi fəaliyyət göstərmişdir. COP29 avtobusları elektrik enerjisiylə çalışır və iqlim çirklənməsinin qarşının alınmasında bir nümunədir. Elektriklə çalışan nəqliyyat vasitələrinin yalnız Bakı ərazisində deyil turizmin mvcud olduğu bütün regionlarda fəaliyyəti təmin edilməlidir.

3. Turizm regionunun olduğu bəzi yerlərdə piyada turizmini də təmin etmək olar. Piyada turizmi bütün regionlarda təmin edilə bilmir. Piyada turizmi dağlıq, meşəlik zonalarda daha çox effektivdir. Turistəri təbiət ekskursiyasına çıxararaq onları iqlimimzin gözəllikləri ilə tanış edə bilərik. Bu iş turoperatorların üzərinə düşür. Turistlərə Şahdağ, Tufandağ, Talış dağları, qoruqların ərazisini gəzdirməklə onlara nəqliyyat vasitəsindən istifadə etmədən turizm səyahətinin alternativ yollarını göstərmək olar
4. Dəniz nəqliyyatlarından istifadə etməklə dəniz turizminin inkişafına yardımçı ola bilər. Ölkəmizin reliyefinin əlverişli olması su turizminin də inkişafına səbəb olur. Dəniz nəqliyyatlarının çirklənməyə səbəb olduğunu bilərək, elektrikli katerlər və qayıqlardan istifadə edilə bilər.

Turizm nəqliyyyatından əldə edilən gəlir iqtisadiyyatımızın inkişafına yardımçı olsa da fəsadları da az deyil. Fəsadların aradan qaldırılması isə yenə də yüksək məbləğdə maadiyyat tələb edir. Lakin yaranan mənfi halların aradan qaldırılması üçün ölkə olaraq çalışılmalıdır ki, ekologiyamızın çirklənməsi prossenin sürətini azaldılsın. Turizm nəqliyyatının iqtisadi gəlirindən çox ekoloji zərəri çoxdur. İqtisadiyyatımıza maadi gəlirin əldə edilməsi yollarında ekologiyamızın çirklənməsinin qarşısını almalıyıq. Turizm nəqliyyatının ekologiyamıza uyğun şəkildə istehsal edilməsini ekologiyamıza mənfi təsirlərin azaldılası üçün xaricdən nəqliyyat vasitələri ölkəmizə gətirilməlidir.

Turizm son illərdə ölkəmizdə gəlirli sahə olmaq yolunda irəliləyir. 2020-ci il ikinci Qarabağ müharibəsində Ordumuzun qalibiyyəti torpaqlarımızın geri qayıtması nəticəsində ölkəmizdə turizm zonların sayı daha da artdı. Tarixi torpaqlarımızın geri alınması nəticəsində turist yerli və xarici turist axını artmaqda davam edir. Bu zonalara insanların getməsi üçün xüsusi turlar təşkil edilir. İnsanlar buraya xüsusi tur şirkətləri

tərəfindən aparılır. Xüsusi avtobuslar vasitəsilə ərazilərə ziyarət təşkil edilir.

Ərazinin relyef xüsusiyyətlərindən aslı olaraq nəqliyyat vasitələri də dəyişilir. Turizm obyektləri əhatə olunduğu obyekt və relyefdən aslı olaraq nəqliyyatdan istifadə edilməsi xüsusiyyətləri də fərqli olur. Bir çox obyektlərdə maşın, velosiped, avtobus nəqliyyatları mövcuddur. Turizmin idarə olunması prosesində ekologiyamızın çirklənməsinin qarşısını almaq üçün bir sıra təkliflər verə bilərik.

I. Turizmin mövcud olduğu yerlərdə(Bakı, Quba, Qusar, Şəki, Qax, Oğuz, Qəbələ, Zaqatala) elektriklə çalışan avtomobil və avtobuslar şəbəkəsinin yaradılması. Turistlər səyahət edərkən nəqliyyat vasitələrini seçməklə səyahət edə bilərlər. Turoperatorların yardımı ilə səyahətçilər ekoloji cəhətdən təmiz nəqliyyat vasitəsini seçə bilər və uzaq məsafəli və yaturizmin yerləşdiyi relyefi səyahət edərək gəzə bilərlər. Ekoloji cəhətdən təmiz nəqliyyatın seçilməsində turoperatorun rolu böyükdür.

II. Turizm sahəsində ərazinin tnıdılması, turizmin imkanlarından faydalanmaq üçün velosiped, skuterlərdən(velosipedlər və skuterlər üçün xüsusi yolların çəkilməsi) istifadənin genişləndirilməsi. Velosiped bir çox ölkələrdə geniş şəkildə istifadə edilən nəqliyyat vasitələrindəndir. Velosipeddən istifadə edilməsi insanların sağlamlıq imkanlarının qorunmasında, fiziki cəhətdən insanların aktivliyinin təmin edilməsində, ekologiyanın çirklənməsinin qarşısının alınmasında, turizm zonalarını gəzərkən ətraf mühitin tam şəkildə mənimsənilməsində, nəqliyyatdan istifadə edərkən əlavə xərclərin tələb edilməməsinə görə üstünlük təşkil edən nəqliyyat vasitəsidir. Turoperatorun rəhbərliyi ilə velosiped turları təşkil edilir. Azərbaycan Turizm sektorunda Qızılağac, Şahdağ Milli parklarında, dəniz və göllərin əhatə olunduğu ərazilərin sahillərində istifadə etmək mümkündür. Velosipeddən istifadə edərək turistlər üçün turlar təşkil etmək olar. Beynəlxalq çərçivədə EuroVelo, Otago Rail Trail, Loire Vadisi, Danube Cycle Path kimi velosiped turları təşkil edən turizm şirkətləri fəaliyyət göstəri. Kütləvi velosiped turlar təşkil edən şirkətlər ölkəmizdə də fəaliyyət göstərməlidir.

III. Texnoloji inkişafın müsbət keyfiyyətlərindən yararlanmaq və yaşıl enerjiylə çalışan nəqliyyat vasitələrindən istifadənin yalnız Bakıda deyil Respublikamızın bütün regionlarında genişləndirilməsi.

IV. Yenidən emal oluna bilən(günəş, külək) enerjidən istifadə edilməsi. Dəniz nəqliyyatının inkişaf etdiyi bölgələrdə külək enerjisindən istifadə etməklə dəniz nəqliyyatının hərəkətə gətirilməsini təmin etmək mümkündür. Günəş enerjisiylə çalışan nəqliyyat vasitələri üçün regionlarda günəş panellərinin yerləşdirilməsi çox vacibdir.

Qeyd olunan məlumatlara uyğun olaraq nəqliyyat vasitələrindən istifadə edilməsi insanların gündəlik həyatlarında, işlərində, səyahət edərkən uzun və qısa məsafələrin qəth edilməsində, tələbatlarını ödəmələrində yardımçı mövqe tutur. Nəqliyyat həyatımızın önəmli parçası olduğuna görə bu vasitədən istifadə edərkən ekologiyamızın çiklənməsinin qarşısını almaq üçün maksimum çalışmaq lazımdır. Ekologiyanın çirklənməsinə bir çox amil təsir etsədə nəqliyyatdan istifadə edilməsi önəmli vasitələrdəndir.

# III FƏSİL. TURİZM SEKTORUNDA TURİZM NƏQLİYYATINDAN İSTİFADƏ NÜMUNƏLƏRİ

## 3.1. Turizm sektorunda ekoloji nəqliyyat vasitələrindən istifadə qaydaları və nümunələri

Turizm sektoru beynəlxalq çərçivədə olduğu kimi ölkəmiz üçün geniş maraq aspektinə çevrilmiş iqtisadiyyatın parçasıdır. Nəqliyyat bütün sahələrin ehtiyac duyduğu vasitələrdən olduğu kimi turizmin inkişafının əsas vasitələrindəndir. Ölkəmizdə turistlərin daşınmasında nəqliyyat əsas vasitədir. beynəlxalq turizm əlaqələrinin yaradılması turistlərin səyahət planlarının təşkili, daşınmasında hava nəqliyyatı önəmli resursdur.

Turizmin inkişafı növbəti illərdə iqtisadiyyatın inkişafında rol oynayacaq əsas sahədir. Turizmin bir çox qolları vardır ki, bu qolların idarə edilməsində nəqliyyat aparıcı rol oynayır. Turizm nəqliyyatının inkişafı yalnız sərnişinlərin daşınması olmamalıdır. Məqsəd turist daşınmasının təbiətə, iqlimə, ekologiyaya zərər vurmadan sahənin inkişaf etdirilməsi olmalıdır. Turizm nəqliyyatından istifadənin səmərəliliyini və təmizliyini nəzərə alaraq beynəlxalq modellərdən, dünya təcrübəsindən istifadə etmək lazımdır. Turizm nəqliyyatından istifadədə bəzi məqamlara nəzər yetirmək lazımdır.

Turizm sektorunda ekoloji nəqliyyatdan istifadənin qarşısında əsas şərtlərdən birinə nəqliyyatdan istifadənin qaydalarının öyrədilməsi və bunun üçün istifadəçilərə təlimçi vasitə kimi əyani vəasitlərdən istifadə və bələdçilərin olması vacib şərtlərdəndir. Ekoloji nəqiyyat vasitələrindən istifadə edilməsinin faydası az karbon emissiyasının yaradılmasında görülür. Bəzi nəqliyyat vasitələri isə ekoloji çirklənmənin yaradılmasında iştirak etmir. Qeyd etdiyimiz qısa məlumat əsasında ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə qaydalarına nəzər salaq.

1. Ekoloji nəqliyyat vasitələrindən istifadə edilməsi üçün nəqliyyatın mövcud olduğu turizm müəssisəsində gələn qonaqlar üçün məlumatlandırma xarakterli maarifləndirici, öyrədici təlimlər təşkil edilməlidir. Həmçinin örədici xarakterli üzərində istifadə qaydalarından bəhs edən kartlar və ya nəqliyyat vasitəsinin olduğu mövqelərdə öyrədici xarakterli plakatlar asılmalıdır.

2. Müəssisələrdə gələn turistlərə ekoloji nəqliyyat vasitələrindən istifadə tövsiyyə edilməlidir. Buraya elektriklə çalışan avtobuslar, avtomobillər, həmçinin kiçik əraziləri gəzmək üçün elektrikli skuterlər, velosipedlərdən istifadə edilməlidir.
3. Turizm müəssisələrində istifadə edilən nəqliyyat vasitələrindənistifadə edilməsi ilə yanaşı nəqliyyat vasitələrinin texniki yoxlanışına nəzarət etmək çox vacibdir. Nəqliyyatdan istifadə edilməsində xüsusi zolaqlardan istifadə edilməlidir. Məsələn: velosipedlər, elektrikli skuterlərdən istifadə edilərkən bu zolaqlardan istifadə önəmlidir. Niderland, Belçika, Hollandiya, Almaniya, Danimarka, İtaliya, Yaponiya kimi ölkələrdə velosipedlərdən istifadə daha geniş şəkildə özünü büruzə verir. Turistlərin səyahət etməsi üçün velosiped daha öncəlikli nəqliyyat vasitəsidir. Zolaqların yaradılması üçün istər özəl, istərsə dövlət müəssisələrində xüsusi diqqət ayrılmalıdır.
4. Günəş enerjisi ilə çalışan nəqliyyat vasitələrindən istifadəni genişləndirmək üçün günəş panellərinin yerləşdirilməsinə diqqət yetirilməlidir. Həmçinin bərpa oluna bilən bu enerji ilə çalışan nəqliyyat vasitələrindən istifadənin genişləndirilməsi üçün xüsusi yönləndirici tədbirlər təşkil edilməlidir. Məsələn: müəssisələrdə reklam xarakterli afişalar asıla bilər, ölkəmizə elektriklə çalışan nəqliyyat vasitələrinin gətirilməsi yolunda maaliyyə ayrılması.
5. Turizm müəssisələrində nəqliyyat vasitələrindən istifadə edilərkən ətraf mühitin çirklənməsi, atmosferin çirklənməsinin qarşısı alınmalıdır. Ekologiyamızın çirklənməsi həyatımızın yox olmasına gətirib çıxarır. Yalnn nəqliyyta vasitələrinin yaratdığı çirklənmə deyil insan əməyinin nəticəsi olan çirklənmələrində qarşısının alınmasında mütəmadi və sistemli şəkildə çalışılmalıdır.

***Atmosfer çirklənməsinin qarşısının alınması üçün ekoloji nəqliyyat vasitələrindən istifadə edilməsinin faydalarına nəzər yetirək.***

1. Ekologiyanın çirklənməsinə qarşı mübarizə xarakteri daşıyır.

2. Ənnənəvi nəqliyyat vasitələrinin yaratmış olduğu səslərin aradan qaldırılmasına xidmət edir.

3. Yeni nəsil bərpa edilə bilən enerji ilə çalışan nəqliyyat vasitələri və velosipedlər, elektrikli skuterlərdən istifadə edilməsi turistlərin marağına səbəb olur.

4. Bərpaoluna bilən enerjiylə çalışan nəqliyyat vasitəsinin istifadəsi yanacaq istifadəsinin faizini 0-a endirir.

Nəqliyyat vasitəsinin ekoloji tərəfdən dözümlülyü- zərərli qaz ixracının qarşısını almaq üçün yeni nəsil elektrik enerjisi və yaşıl enerjiylə çalışan nəqliyyat vasitələrdən istifadə etmək lazımdır. Zərərli qazların yaranmasının qarşısını almaq üçün yanacaqla çalışan, emal oluna bilən enerjiylə çalışan nəqliyyat vasitələrinə keçid etmək lazımdır. Yeni nəsil ekologiyanın çirklənməsində mənfi təsiri az və ya olmayan nəqliyyat vasitələrindən istifadə olunması üçün məlumatlara nəzər salaq.

***İqtisadi gəlirli nəqliyyat vasitəsi***- iqtisadiyyatın bir parçası olan nəqliyyat vasitələrindən istifadə həm də nəqliyyat vasitələrinin alınması ölkəyə gətirilməsi təmin edilməlidir.

***İnteqrativlik***- turizmin inkişafı üçün nəqliyyat vasitələrinin önəmini vurğuladığımız kimi nəqliyyat sisteminin yaradılması üçün iş yerləri yaradılmalıdır. İş yerlərinin yaradılmasında dünya təcrübəsindən istifadə etmək önəmlidir. Sistemin qurulması nəticəsində nəqliyyat sisteminin əlçatanlığı təmin edilməlidir.

Turizm nəqliyyatının təşkili hüquqi tərəfdən qorunmalıdır. Turizm nəqliyyatı yalnız sərnişin daşınması üçün deyil yük daşınmasında da önəmlidir. Turizm nəqliyatının idarə edilməsinin əsasını avianəqliyyat təşkil edir. Beynəlxalq nəqliyyat sisteminin inkişafı yolunda bir sıra tədbirlər və konfranslar həyata keçirilmişdir.

Turizim regionlarında turizm nəqliyyatından istifadə geniş şəkildə yayılmaqla qonaqların rahatlığının təmin edilməsinə yönəldilmişdir. Turizm regionları daxilində tətbiq edilən nəqliyyat vasitələrinin əsas məqsədi region daxili çatdırılma, rahatlığın təmini, regiondaxili ekskursiyaların təşkili, əyləncə məqsədli nəqliyyat vasitələrindən istifadədir(kvadrosikl).

Turizmdə geniş istifadə edilən nəqliyyat növlərindən biri də quru nəqliyyatıdır. Quru nəqliyyatının bir çox növləri mövcuddur ki, hər birinin müsbət və mənfi keyfiyyətləri özünü büruzə verir.

***Avtomobil*** | ***Avtobus***

***Velosiped*** | ***Dəmiryolu***

***Traleybus*** | ***Piyada***

***Heyvanlar***

Qeyd edilən nəqliyyat növlərinin hər biri quru nəqliyyatının əsas növlərindəndir ki, hər birinin müsbət və mənfi keyfiyyətləri özünü büruzə verməkdir. Ekoloji cəhətdən faydalı olan, ekologiyamızın çirklənməsinə az təsir olan nəqliyyt vasitələri olmaqla növlərə ayrılır. Turizmin bütün sahələrində nəqliyyata ehtiyac duyulur. Nəqliyyat vasitələrindən ancaq turist daşınmasında deyil yük daşınmasında da geniş şəkldə istifadə edilir.

Bir sıra ölkələrdə turizm inkişaf etsə də turizm obyektlərinə getmək üçün elektronik, benzinlə hərəkət edən nəqliyyat vasitələrindən istifadə etmək mümkün olmur. Yunanıstanın Hidra şəhəridə bu cür relyefə malikdir ki, turistlərin ölkənin əsrarəngiz gözəllikərinə şahid olmaq üçün minik vasitəsi kimi uzunqulaqlardan istifadə edirlər. Uzunqulaqardan istifadə edilməsi ekologiyanın çirklənməsinin qarşısını alsa da heyvanların istismarına yol açır. Turizmin mövcud olduğu bir sıra dünya ölkələrində- Misir, Hindistan, Nepal, BƏƏ, Norveç, İsveç, Fillandiyada ərazinin tanıdılması, turistlərin vaxtlarını səmərəli keçirmələri üçün heyvanlardan(it, at, dəvə, fil, uzunqulaq, dəvəquşu) nəqliyyat vasitəsi kimi istifadə edilir.

Quru nəqliyyatında öləmizin bütün turizm regionlarında istifadə edilir. Quru nəqliyyatından istifadə edilən regionlarımıza nəzər yetirək.

**Qəbələ-** Tufandağın region ərazisində yerləşməsi regionda müxtəlif nəqliyyat vastilərinin tətbiqini görə bilirik. Buraya kanad xətləri, minik maşınları, avtobuslar, xizək mərkəzi, dağ turizmində kvadrosikllardan istifadə edilir. Oyun məqsədli istifadə edilən nəqliyyat növlərinin istifadəsində öyrədici heyət tərəfindən qonaqlara nəqliyyat

vasitəsindən istifadə xüsusiyyətləri öyrədilir və nəqliyyatdan istifadə ərzində öyrədici müəllimlərin müşahidəsi altında onların təhlükəsizliyi qorunur.

İsmayıllı turistik zona olaraq tanınmış respublikamızın rayonudur. Rayonun ən çox ziyarət edilən kəndi Lahıc kəndidir. Kəndin qədim tarixə sahib olması turistlərin marağını cəlb edir. Keçən əsrdə kəndə getmək çox çətin olsa da hazırda yolların əsaslı təmiri turistlərin kənd ərazisinə getməsində xüsusi bir maneə olmadığını göstərir. Yolların əsaslı təmir olunması tur avtobusları, mikroavtobsların, xüsusi maşınlardan istifadənin daha da artmasına səbəb olur. Bu da karbon emissiyası demkdir. Ekologiyanı çirklənməsi, deməkdir. Regionun ölçüsünün kiçik olması çirklənmənin yaradılmasının az olması deyildir. Hər bir kiçik regionun daxilində yaranan karbon emisiyalarnın qarşısı alınarsa çirklənmənin faizi stabil saxlanıla billər.

Dağlara kanad xətləri və kvadrosikllar vasitəsilə ekskursiyalar təşkil edilir. Kvadrosikllardan istifadə edilməsi səyahətin həm də əyləncəli şəkildə keçirilməsində məqsəduyğun hesab edilir.

**Quba**- geniş turizm obyektərinə sahib turizmin inkişaf etdiyi şəhərlərimizdəndir. Quba daxilində yerləşən obyektlərimizə səyahət edən turistlərimizin daşınmasında avtomobil nəqliyyat vasitələrinin yardımı ilə səyahətləri təşkil edilir. Xınalıq kəndi şəhərin tarixi qədim yaşayış evləri ilə zəngin kəndidir. Kəndə maşınlar vasitəsilə gedilir. Tur şirkətləri tərəfindən mikroavtobus və avtobuslar vasitəsilə kənd ərazisinə xüsusi turlar təşkil edirlər.

Qusar Quba şəhərinə qonşu olan xarici və yerli turistlərimizin ən çox səyahət etdiyi regionumuzdur. Regionun əlverişli iqtisadi şəraiti, qış və yay turizminin geniş vüsət alması şəhərə turist axının dayanmadan artmasına səbəb olur. Turist axınının təmin edilməsində iştirak edən turizm şirkətləri turlar təşkil edərək turistlərin regionun gözəllikləri ilə tanış olmalarına yardımçı olurlar. Turistlər mikroavtobus, xüsusi nəqliyat vasitələri ilə əraziyə gətirilir. Ərazi daxilində fəaliyyət göstər Nənəqliyyat vasitələri ilə regionla tanış olurlar.

Şahdağ qış- yay turizm regionunun Qusar ərazisində olması da regionun turizmdə irəliləyişinin səbəbidir. Kompleksdə avtobuslar, maşınlar vasitəsilə turistlərin daşınmasını müşahidə etmək mümkündür. Kompleksin daxilində mövsümə uyğun

şəkildə xizək mərkəzi, kabellə hərəkət edən kanad xətləri, Kartinq və ATV, Golf Arabalarından istifadə edilir. Verilmiş nəqliyyat vasitələrinin hər birinin ekoloji çirklənməyə səbəb olan və ekoloji çirklənməyə səbəb olmayan növləri mövcuddur. Həmçinin kompleks daxilində şəxsi avtomobillər üçün parklama yerləridə mövcuddur ki, qonaqların rahatlığına yönəldilmişdir.

Kabel xətləri vasitəsilə dağlıq ərazilər ziyarət edilir, xizək mərkəzlərinə, dağ ərazisində yerləşən restoranlara aparılır. Kabel xətləri elektrik enerjili kabellər vasitəsilə idarə edildiyinə görə çirklənməyə səbəb olmur. Nəqliyyat vasitəsindən istifadə həm ekoloji çirklənmənin qarşısını alır, həm də insanların getmək istədikləri mərkəzlərə çatdırılmasına xidmət göstərir.

Qolf arabalarından istifadə edilməsi zərəli qazların yaranmasına səbəb olur. Qolf arabalarından daha çox yay aylarında istifadə edilir. Bu nəqliyyat vasitələri mövsümlük xarakter daşıyır.

Kartinq və ATV-lər bir çox nəqliyyat vasitələri kimi həm elektrikli, həm də yanacaq vasitəsilə hərəkətə gətirilir. Bu nəqliyyat vasitələri yay aylarında turizm obyektləri daxilində geniş istifadə edilərək turistlərin diqqətini xüsusi cəlb edir.

Şahdağ kurort transfer xidməti fəaliyyət göstərir ki, qonaqların daşınmasına xidmət göstərir. Kurortda Avtobus və mikroavtobuslar fəaliyyət göstərir. Qeyd edilənlərlə yanaşı xüsusi kirayəedilən VİP konfort avtomobillər götürə bilərlər.

Qobustan tariximizin ilkin izlərinin olduğu rayonumuzdur. Turistlərin diqqətini ən çox qayaüstü rəsmlər cəlb edir ki, rəsmlər tariximizin izlərini özündə ehtiva edir. Qobustan Bakıdan 60 km məsafədə yerləşir ki, Bakı daxilindən, hava limanından birbaşa nəqliyyat vasitələri(avtobus, mikroavtobus, avtomobil, ) ilə regiona səyahətlər təşkil edilir.

**Şəki** - tariximizin izlərini daşıyan başqa bir regionlarımızdan biridir. Region Şəki-Zaqatala-Balakən iqtisadi regionuna daxil olaraq Qafqaz sıra dağlarının ətəyində yerləşir. Regionun coğrafi quruluşu onun iqliminin müaliyim olmasınıa səbəb olur. İqlim rəngarənliliyi, tarixi genişliyi ilə məşhur olan şəhər respublikamızın geniş səyahət edilən regionlarındandır. Regiona bir çox regionlardakı kimi xüsusi maşınlar, avtobuslar, mikro avtobuslarla getmək mümkündür.

Turizmin inkişafı üçün nəqliyyat vasitələrinin istifadəsi olduqca faydalı və işin sürətli şəkildə inkişafı və başa vurulmasına səbəb olur. Lakin turizmin sahə olaraq irəliləməsi respublikamız üçün gələcək iqtisadi gəlir sahəsinin genişlənməsinə səbəb olsa da bir tərəfdən də ekoloji çirklənmənin səbəblərindəndir. Ekoloji çirklənməyə hər bir iqtisadi sahə müxtəlif formalarda, müxtəlif formalarda zərər vursa da çirklənmənin qarşısı effektiv sistemli şəkildə alınmağa çalışılmalıdır.

Nəqliyyat vasitələrindən istifadə edilməsi xüsusiyyətləri və nəqliyyatlar ölkəmizə dünya ölkələrindən inteqrasiya edilərək gətirilmişdir. Nəqliyyatdan istifadə edilməsi insanların həyatlarının daha konfortlu olmasında, getməli olduqları ünvana rahat şəkildə çatmalarında kömək edir.

Turizm nəqliyyatından istifadə edilməsində dünya təcrübəsinə nəzər yetirək. Turizmin geniş inkişaf etdiyi qitələrdən olan Avropa günümüzün ən çox səyahət edilən regionudur. Regionun əlverişli iqlim şəraiti, regionda yerləşən ölkələrin tarixiliyinin qorunub saxlanması, tarixilik və müasirlik arasındakı inteqrasiya xüsusiyyətləri regionun əsrlər boyu turistik inkişafınınləngimək bilməyən inkişafının göstəricisidir. Qısa nümunələrə baxaraq turizmin inkişafı və turizmin inkişaf etdiyi bölgələrə getmənin yollarına nəzər yetirək.

**Fransa** – ölkənin ən sevilən tarixi abidəsi deyə biləcəyimiz obyekti Eiffel qülləsidir. Qülləni turistlər üçün maraqlı edən yalnız onun özünəməxsus quruluşu və ölçüsüdür(324 m).

**İtaliya** – Vatikan, Pisa, Florensiya, Milan, Neapol, Verona, Siena, Turin kimi tarixi şəhərləri olan ölkənin tarixi regionlarına getmək üçün qatar, avtobus, avtomobil nəqliyyatları vasitəsilə getmək mümkündür. Bir çox turistlər şəhərləri dəmir yolu nəqliyyat vasitəsilə səyahət edərək, həm büdcələrinə, həm də yolun daha rahat, təhlükəsiz və zamanın yola az sərf edilməsinə yardımçı olur. Sürət qatarlarından istifadə edilərək məsafə problemi aradan qaldırılır. Sürət qatarları bir neçə hissəyə ayrılır ki, bu vasitələrdən istifadə qısa uzun və orta məsafələrə səyahət üçün nəzərdə tutulmuşdur. Nəqliyyat vasitələri elektrik enerjisiylə çalışması ilə ekoloji çiklənmənin qarşısının alınmasında xüsusi nümunədir.

- ✓ Frecciarossa (Qırmızı Ox) - böyük şəhərlərə səyahət etmək üçün istifadə edilərək, ölkənin böyük tarixi şəhərlərini birləşdirən sürət qatarıdır.
- ✓ Frecciargento (Gümüş Ox) - Frecciarossa qatarları ilə müqayisədə sürəti aşağıdır və ölkənin kiçik məsafədə yerləşən şəhərlərinə səyahət etmək üçün nəzərdə tutulmuşdur.
- ✓ Frecciabianca (Ağ Ox) - qatarın bu növü isə sürəti daha az olmaqla şəhərin şimalı və cənubu arasıbdakı məsafələri getmək üçün istifadə edilir, bir sözlə şəhərdaxili sürət qatarı deyə bilərik.

Asiya qitəsinin geniş ərazidə yerləşməsi qitə daxilində yerləşən regionların əlaqəli şəkildə turizminin inkişafında hava nəqliyyatından daha çox istifadə edilir. Rusiya Federasiyası, Hindistan, Yaponiya, Çin kimi nəhəng ölkələrin yerləşdiyi qitə zəngin turizm regionlarına sahibdir. Ölkələrin hər birində ekoloji çirklənmənin qarşısının alınması yolunda faydalı yəni ekoloji çirklənməyə səbəb olmayacaq, günəş, elektrik və aşı enerjiylə çalışan nəqliyyat vasitələrindən istifadəsi genişlənməkdədir. Hindistan dəmiryol nəqliyyatının geniş istifadəsi ilə məşhur ölkələrdəndir. Ötən əsrlərdə yanacaqla çalışan qatarlardan geniş istifadə edilirdisə son illərdə elektrik enerjisi ilə çalışan nəqliyyatlardan istifadə edilir. Turistik bölgə olaraq tanınan regionda insanlar səyahət edərkən xüsusi avtomobillərdən daha çox istifadə edirlər. "Benqal", "Qucarat", "Maharaştra", "Delhi", "Kaşmir", "Tac Mahal" kimi şəhərlərinin məhşurluğu turist axının səbəbidir. Hava şəraitindən aslı olaraq səyahət üsullarıda dəyişilir. Qış aylarında səyahət etmək üçün elektrikli və dizellə çalışan dəmir yol nəqliyyat vasitələrindən istifadə məsləhət görülür. Minik avtomobilləri və avtobuslardan istifadə edərkən elektrikli, yaşıl enerji və günəş enerjisi ilə çalışan nəqliyyatların az olduğunu görə bilərik.

Yaponiya dünya ölkələri içində elektrik, günəş, yaşıl enerji ilə çalışan nəqliyyat vasitələrinin istifadəsində öndə olan inkişaf etmiş ölkədir. Elektrikli, hibrit avtomobillər, velosipedlərdən geniş istifadə, sürət qatarlarından geniş şəkildə istifadə edilməsi, şəhərlər və rayonlar arasında elektrik enerjisi ilə çalışan nəqliyyat vasitələrindən isifadə edilməsi ilə məşhur olan ölkə son illərdə baş verən iqlim dəyişikliklərin qarşısının alınmasında müsbət, faydalı işlərə imza atmaqda davam edir. Ölkənin iqtisadi, elmi tərəfdən öndə

olması dünya ölkələrinin diqqətini cəlb etdiyindən ölkəyə turist axını daha çoxdur. Turistlərin hava nəqliyyatı vasitəsilə ölkəyə gəlməsi, ölkə daxilində müxtəlif ekoloji nəqliyyat vasitələri ilə ölkənin müxtəlif şəhərlərinə səyahət etməsinin şahidi oluruq. Yaponiya “Shikoku”, “Kyushu”, Gölləri, ″Okinava”, “Hokkaido” adaları, “Fuji dağları” və “Fuji 5” kimi turizm zonalarına sahib ölkələrdəndir. Səyahət zamanı turistlərin daşınmasında sırf elektrik enerjisi, bərpa oluna bilən günəş enerjisi ilə çalışan nəqliyyat vasitələri görürük.

Afrika iqtisadi geriliyi ilə tanınan regiondur. Ərazidə daha çox iqtisadi tənəzzülə uğramış regionları görə bilirik. Algeriya, Misir, Liviya, Somali, Nigeriya, Gana, Seneqal, Efiopiya, Kenya, Tanzaniya, Uqanda kimi inkişaf etmiş və inkişafda olan ölkələr yerləşir. Qeyd edilən ölkələr kasıb və inkişaf etmiş olaraq ayrılsa da turizmin mövcud olduğu ölkələrdir. Lakin turistlərin daşınması, ərazi ilə tanış edilməsində ekoloji təmiz nəqliyyat vasitələrindən az istifadə edilir.

Misir inkişaf etmiş ölkə olduğundan turizmin inkişafı da özünü büruzə verir. Ölkəyə gələn turistlərin daşınmasında ekoloji təmiz nəqliyyatların istifadəsinə az yer verilir. Ölkədə son illərdə ekoloji çirklənmənin qarşısı alınması yolunda xüsusi proqramla hazırlanır. Hansı ki, günəş enerjisindən istifadə imkanına sahib ölkədə günəş enerjisi ilə çalışan nəqliyyat vasitələrindən istifadə edilə bilər.

Ölkədə turizm bögələrində insanlar səyahət zamanı dəvə turlarından istifadə edərək ərazini gəzə bilər. Dəvə turlarından istifadə regionun tarixi abidələrinin qorunması, tarixinin qorunması və dünyaya tanıdılmasında əhəmiyyətli mövqe tutduğunun göstəricisidir. Həmçinin ölkədə şəhərlərarası nəqliyyat vasitəsi kimi dəmir yol nəqliyyatından istifadəyə son illərdə başlanıldığına görə geniş yayılmamışdır. Nəticə olaraq isə deyə bilərik ki, Misir turizmin inkişaf etdiyi ölkə olsa da ölkədə turistlərin daşınması üçün ekoloji təmiz nəqliyyatların istifadəsi hələ geniş yayılmamışdır.

Verilmiş nümunələr əsasında dünya turizm nəqliyyatının inkişafında ölkələrin inkişafa müxtəlif formalarda yanaşdığının şahidi oluruq. Əsas səbəblərə isə ölkəni iqtisadi inkişafda olması və bu sahə üçün müəyyən maaliyyə sisteminin ayrılmamasıdır. Sahəyə qoyulacaq  investisiya həm ekoloji təmizliyin təmin olunmasına həm də, turizmin inkişafında, turistlərin cəlb edilməsində əhəmiyyətli mövqe tuta bilər. Ekoloji

çirklənmənin qarşısını bütün sahələr üzrə yarana biləcək bütün mənfi halların qarşısının alınması yolunda müntəzəm və sistemli, əlaqəli çalışmaq önəmli strategiyadır.

## 3.2. İqtisadi inkişafda ekoloji təmiz turizm nəqliyyatının tətbiqi nümunələri

İqtisadi inkişafın təmin olunması yolunda turizm önəmli sahələr sırasına girməkdədir. Turizmin inkişafında nəqliyyatından istifadə edilməsinin səbəbi ekoloji çirklənmənin qarşının alınması yolunda təmiz nəqliyyat vasitəsindən istifadə edilməsidir. Turizm nəqliyyatından istifadə ekoloji təmizliyə nail olmaq üçün davamlı şəkildə istehsalı başlanılan, ekoloji çirklənmənin azaldılmasına yönəldilmişdir. Hazırki turizm sektorunda turistlərin daşınması, ünvana çatdırılması yolunda ekoloji təmiz nəqliyyat vasitələrindən istifadəyə üstünlük verilir. Bütün ölkələrdə vəziyyət eyni olmasa da mümkün bütün tədbirlər görülməyə çalışılır. Ölkəmizdə son illərdə ekoloji təmiz nəqliyyat vasitələrinin alınması prosesi geniş tətbiq edilməyə başlanılmışdır. Turizmin inkişaf etdiyi regionlarımızda tam olmasa da ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə genişləndirilməkdədir.

Azərbaycanda turizmin inkişafı, ilbəil artan turist axını inkişafın sürətlə getməsi ekoloji nəqliyyatdan isifadənin məcburi hal almasına səbəb olmuşdur. Sürətli turist axını son illərdə artmaqdadır. Bir çox regionlarımızda elektrik enerjisi ilə çalışan nəqliyyat vasitələri turistlərin ixtiyarına verilmişdir. Hava yolları ilə ölkəyə daxil olan turistlərin daşınmasında elektrik enerjisi ilə çalışan nəqliyyatlardan istifadə geniş vüsət almağa başlamışdır.

Turizm nəqliyyatından istifadə turistlərin səyahətinin və ünvanlara çatdırılmasının təmin edilməsi ilə yanaşı yeni iş yerlərinin yaranmasına səbəb olmuşdur.

Turizmin iqtisadi inkişafının təmin edilməsində turizm nəqliyyatı müxtəlif formalarda dəstəklənir. turizm nəqliyyatından istifadənin iqtisadi inkişafdakı faydalarına nəzər yetirək.

**İş obyektlərinin yaradılması-** hava limanları, avtovağzallar, dəniz limanları, dəmir yolu stansiyalarının yaradılması prosesi sürətlə davam edir.

**İqtisadi inkişafın təmin edilməsi-** turizm sektorunun inkişafı yolunda turistlərin

daşınması fəaliyyətində nəqliyyat vasitələrindən kütləvi istifadə edilməsi məqsədəuyğun hesab edilir.

**Turizm nəqliyyatı gəlirlərinin artırılması-** müasir, konfortlu nəqliyyat vasitələrindən istifadə edilməsi nəticəsində turist axının artırılması, xarici və daxili turist axının cəlb edilməsi ilə gəlirlərin artırılması prosesi sürətləndirilir.

İqtisadi inkişafın təmin edilməsində turism nəqliyyatı infrastrukturu genişləndirilməkdə davam edir. İnfrastrukturun genişləndirilməsində bir sıra iqtisadi tədbirlər görülür.

1. Hava nəqliyyatından istifadə yollarının modernləşdirilməsi. Hava limanlarının müasir standartlara uyğun şəkildə inkişafı təmin edilir.

2.Dəmir yolu və avtovağzal stansiyalarının genişləndirilməsində yeni stansiyalar yaradılaraq turistlərin rahat və aşağı qiymətli səyahəti təmin edilməyə çalışılır.

3. Su nəqliyyatı şəbəkələrinin yaradılması: dəniz turzminin inkişafı üçün dəniz limanları yaradılmaqla limanlar arası əlaqə qurulmalı, su nəqliyyatının gəlirləri artırılmalıdır.

4. İctimai nəqliyyat vasitələrinin genişləndirilməsi yolunda tədbirlər görülməklə, turizmin yerləşdiriyi, fəaliyyətinin təmin edildiyi bölgələrdə nəqliyyatın hərəkəti təmin edilməlidir.

Turizmin mövcud olub, inkişaf etdiyi bölgələrimizdə turizm nəqliyyatından istifadə mütləqdir. Müvafiq nəqliyyat sisteminin yaradılması çox vacibdir. Nəqliyyat sisteminin yaradılması turizm yerlərində müştəri axırın təmin edilməsində, həm nəqliyyat gəlirinin, həm də müəsisə daxili gəlirin artırılmasında əhəmiyyətli faktordur. Turizm sahəsinin yerləşim yerindən aslı olmayaraq turizm nəqliyyatının tətbiqi üçün nəqliyyat vasitəsi şəbəkəsi yaradılmaqla yeni ekoloji çirklənməyə səbəb olmayacaq nəqliyyat vasitələrindən istifadə edilməlidir.

Dağlıq regionlarda turizmə daha çox maraq olduğundan burada nəqliyyat vasitələrinin bir çox növündən istifadə edilir ki, turizm obyektləri ilə şəhər mərkəzləri arasında əlaqə qurulur və turistlərin diqqətini cəlb edir. Ucqar turizmin mövcud olduğu regionlarda turistlərin diqqətinin bu ərazilərə cəlb edilməsi üçün bir çox tur şirkətləri tərəfindən turoperatorların rəhbərliyi altında müxtəlif nəqliyyat vasitələri

ilə(əsasən tur avtobusları) turlar təşkil edilir. Nəqliyyat vasitələrindən istifadə edilməsi ilə regionumuzun mədəni irsinin  dünyaya tanıdılması yolunda irəliləyişlərin şahidi ola bilirik.

Turizm nəqliyyatından istifadə edilməsi qeyd edildiyi kimi ekologiyanın çirklənməsi prosesində iştirak etdiyinə görə, həmçinin nəqliyyatdan istifadənin lazımlı olduğunu bilərək nəqliyyat vasitəsindən faydalı şəkildə istifadə təmin edilməlidir. Bu səbəbdən də nəqliyyat vasitələrindən istifadə nümunələrinə nəzər yetirək. İlk öncə Quba turizmində nəqliyyat vasitələrindən istifadə xüsusiyyətlərinə nəzər yetirək.

Quba Respublikamızın şimal- şərq hissəsində yerləşən tarixiliyi ilə seçilən, tarixilik xüsusiyyətinə görə turistlərin diqqətini cəlb edən turizm zonasıdır. Qubaya səyahət etmək istəyən turistlərə bir neçə nəqliyyat vasitəsi seçimi verilir. Əcnəbi turistlər hava yolları vasitəsilə gələrkən Bakı, Gəncə, Qəbələ kimi rayonlarımza hava nəqliyyatı ilə gələ bilərlər. Qubaya getmək üçünsə müxtəlif nəqliyyat vasitələrindən şəxsi avtomobil, avtobus və ya mikroavtobuslardan istifadə edərək gedə bilərlər. Bu cür əraziyə səyahət etmək həm onların yollarda müxtəlif turizm ərazilərinin də görmələrinə kömək edir, həm də maadi tərəfdən daha az pul xərcləməklə səyahət edə bilirlər. Həmçinin əraziyə gedən xüsusi taksilərdə fəaliyyət göstərirlər.

Quba daxilində turizm istiqamətli nəqliyyat vasitələr fəaliyyət göstərərək turistlərin mərkəzlə daşınması, ərazi haqqında daha dəqiq məlumat verilməsində yardımçı olur.

Rayonun daxilində şxsi maşınlar vasitəsilə səyahət edilə bilər və burada maşınlar kirayə edilərək səyahət təşkil edilə bilir. Ərazidə yerləşən nəqliyyat vasitələri ekoloji təmiz nəqliyyat vasitələri olmadığından ekoloji çirklənmənin qarşısın alınması yolunda əhəmiyyəti qeyd edilə bilmir.

Turizm obyektlərinin yerləşdiyi kəndlərə heyvanlardan istifadə edilərək gəzintiyə çıxmaq mümkündür. Burada ərazidə yerləşən əhali atlar vasitəsilə turistlərin ərazidə gəzintisini, ərazinin qruluşunun tanıdılmasına yardımçı olur. Atlarla gəzinti yalnız ərzinin tanıdılması üçün deyil həmçinin əyləncə məqsədli, insanların maraq dairəsinə aid edildiyi üçün təşkil edilir.

Quba geniş və dağlıq ərazi relyefinə sahib olduğuna görə ərazidə daha çox

avtomobil nəqliyyat vasitələrindən istifadə edilir. Dağlıq ərazilərə getmək üçün xüsusi maşınlar fəaliyyət göstərir ki, obyektlərdə yerləşən işçilər tərəfindən ərazilərə getmək mümkündür. Qəçrəş, Afurca şəlaləsi, Xınalıq kəndlərinə gedən yollar çətin və uzaq olduğuna görə taksi və şəxsi avtomobillərdən istifadəyə üstünlük verilir. Xüsusilə qeyd etmək lazımdır ki, turistlərin diqqətini cəlb edən bu ərazilərə turlar təşkil edilir.

ərazi turizmin inkişafında xüsusi mövqe tutsada, fauna və florasının genişliyi ekologiyanın qorunması yolunda hələ də turizmdə ekoloji inkişafda müsbət nəticə əldə edilə biləcək avtomobil, avtobus nəqliyyatları mövcud deyildir.

Qubada geniş meşəliklər mövcud olduğundan buraya velosiped turları təşkil edilərək ekoturizmin inkişafına səbəb ola bilər.

Quba turizm müəsisələrində, meşə ərazilərində ekoturizmin inkişafı üçün piyada gəzintilət təşkil edilir.

Quba turizmin inkişafına görə, turistlərin daha çox səyahət etməyə səy göstərdiyi regionlardan olmasına baxmayaraq dağlıq ərazilərə getmək üçün mövcud yolların yaxşı vəziyyətdə olmaması, fəsillərin yaratmışolduğu hava şəraitindən aslı olaraq turizm zonalarına getmək kimi problemlər yaşanır.

Bölgədə ekoloji təmizliyin inkişafı üçün tədbirlər görülməsi üçün turistlərin sahə üzrə gəzintisinin təmin edilməsində istifadə edilən nəqliyyat vasitələrinin ekoloji çirklənmənin qarşısının alınmasında faydalı olacaq elektriklə çalışan avtomobil, avtobus kimi nəqliyyat vasitələri ilə əvəz edilməsi vacibdir.

Lənkəran ölkəmizin cənubunda yerləşən rütubətli iqlim şəraiti, təmiz ekoloji iqlimə sahib turizm regionumuzdur. Region turistlərin diqqət mərkəzində olmaqla ekoloji inkişafda nümunə göstərilə biləcək nəqliyyat vasitələrinə sahibdir. Regionda bir çox turizim iaşə obyektləri, parklar, meşələr, göl mövcuddur. Ərazinin relyefi müxtəlif ekoloji nəqliyyat vasitələrindən istifadəyə şərait yaradır. Hirkan Milli Parkı, Xanbulan gölü və turizm obyektləri, otellər, restoran ərazilərində səyahətlər üçün elektriklə çalışan nəqliyyat vasitələrindən istifadə edilir. Ərazinin münbit relyefi burada velosiped turları, piyada gəzinti turlarınının təşkilinə şərait yaradır. Rayon ərazisində piyada turları təşkil edilərək turistlərin ərazinin gözəllikləri ilə tanış edilməsi prosesi baş tutur. Ərazidə bu cür turların təşkil edilməsi ilə bir sıra tədbirlər həyata keçirilə bilər.

1. Velosipedlər əldə etmək üçün xüsusi məntəqələr yaradıla bilər.

2. Gündəlik və həftəlik piyada və velosiped turları təşkil edilə bilər.

3. Velosipedlər üçün park ərazilərində xüsusi yollar tərtib edilə bilər.

Velosiped turları üçün rayon ərazisində xüsusilə də Hirkan Milli Parkı və Xanbulan gölü ətrafında yollar yaradılaraq gəzintilər təşkil etmək daha maraqlı olar ki, bu da ərazinin gözəlliklərinin nəzərə çarpması və ərazidəki gəzintinin daha səmərəli təşkilinə səbəb ola bilər.

Xanbulan gölündə su turları təşkil edilir. Bu turlarda çirklənməy səbəb olmayan elektrik və günəş enerjili qayıqlardan istifadə edilir.

Lənkəran ərazisinə səyahət edərkən regionda dağlıq və kənd ərazilərində yerləşən turizm zonlarına səyahət etmək üçün heyvanlardan atdan istifadə edirlər. Həmçinin burada fayonlardan istifadə edərək turist gəzintiləri təşkil edilir. Atlardan istifadə eədrək fayton gəzintilərinin təşkil edilməsi yanacaq sərfiyyatı olmadan, zərərli qazların yaranmaması ilə gəzintilər baş tutur. Atlardan nəqliyyat vasitəsi kimi istifadə edilməsinə ekoturizm nəqliyyatı adı verə bilərik. Bu cür gəzintilər əsasən şəxsi olduğundan genişləndirmək məqsədi ilə xüsusi fayton dayanacaqlarının təşkil edilməsi vacibdir. Qeyd etmək lazımdır ki, faytonlardan istifadə edib ekoloji çirklənmənin qarşısının alınması yolunda heyvanların qayğısına qalmaq önəmli amildir. Lənkəran ekoloji turizm nəqliyyatının inkişafında xüsusi mövqey tutduğundan dövlət tərəfindən dəstəyin göstərilməsi çox faydalıdır.

2010-cu il dünyada ən isti il olmaqla, 2000-2010-cu illər dünyada ən isti onillik kimi tarixə düşmüşdür. Belə ki, 2000-2010-cu illərdə Yer kürəsi üzrə orta illik temperatur 1961-1990-cı illərin normasına görə 0.5°C artmışdı.[S.Səfərov, R.Mahmudov, "Müasir iqlim dəyişmələri və Azərbaycan", Bakı-2011, S, 5]

2024-cü il 20 noyabr tarixində COP29-un Urbanizasiya, Nəqliyyat və Turizm Günü çərçivəsində "Beynəlxalq aviasiya və iqlim dəyişikliyi" adlı yüksəksəviyyəli panel müzakirəsi keçirilib.

"Beynəlxalq Aviasiya və iqlim dəyişikliyi" adlı panelin məqsədi ekoloji çirklənmənin qarşının alınmasında karbon emisiyasına az səbəb olacaq yanacaq növlərinin yaradılması və elektrik enerjisinə davamlı nəqliyyat vasitələrindən istifadənin

genişləndirilməsidir. COP29 çərçivəsində keçirilən tədbirlər nəticəsində ölkə ərazisində elektrik enerjisiylə çalışan kütləvi sərnişin daşıma avtobuslarından istifadə genişləndirilmişdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Turizm bütün dünyanın iqtisadiyyatının bir parçasıdır. Turizm sektoru daimi inkişafda olan iqtisadi sahədir. Turizmin inkişafının təmin edilməsində əsas rol oynayan obyektlərdən biri turizm nəqliyyatıdır. Turizm nəqliyyatı turizmin inkişafının təmin olunmasında rol oynaması ilə iqtisadi inkişafda gəlirlərina rtırılmasında mühüm rol oynayır.

Ekoloji çirklənmənin qarşısının alınması yolunda bir sıra tətbirlər görülür ki, turizm sistemində də turizm nəqliyyatının istifadə edilməsində ekoloji çirklənməyə səbəb olacaq zərərli qazların yaranmasında fəaliyyət göstərən nəqliyyat vasitələrindən istifadənin qarşısını almaq üçün yeni nəsil hibrit, elektrikli, yaşıl enerjiylə çalışan, günəş enerjisi ilə hərəkət edən nəqliyyatlardan istifadə edilməyə başlanılmışdır.

Ekoturizmin inkişafında turizm nəqliyyatının təmizliyin, yəni elektrikli, günəş enerjisiylə çalışan, velosipedlər, bəzi turizm regionlarında heyvanlardan istifadə edilməsinə diqqət yetirmək lazımdır. Turizm nəqliyyatından istifadə edilməsi turizm sizteminin inkişafının təmin edilməsinin əsas faktorudur. Turizmin inkişafında ekoloji nəqliyyatlardan istifadə isə həm turizmin, həm də ekologiyamızın inkişafında, mənfi təsirlərin aradan qaldırılmasında faydalı vasitədir. Ekoloji turizm nəqliyyatının tətbiqi yalnız ekoloji çirklənmənin qarşısının alınmasına deyil, həmçinin yeni iş yerlərinin yaradılmasına səbəb olur.

Respublikamızda kütləvi şəkildə ekoloji çirklənmənin qarşısını almaq üçün nəqliyyat vasitələrindən istifadə edilməsə də bu sahədə kütləvi tədbirlər görülür.

Sərnişin daşınması prosesini həyata keçirən bütün fərdi və şirkət sahibkarları nəqliyyatdan istifadənin təmin edilməsində yeni nəsil nəqliyyat vasitələrinin istifadəsinə təkan verməlidirlər.

Ekologiyanin təmizlənməsi yolunda tətbiq edilə biləcək bir sıra tədbirlərin görülməs önəmlidir.

- ✓ Ekologiyanın təmizliyinin təmin edilməsində turizm regionlarında elektrik, günəş, yaşıl enerji ilə çalışan avtomobil, avtobusların tətbiqi(bir çox Asiya ölkələrində turizm sektorunda istifadəsi məşhur olan elektrikli tuktuklardanda istifadə edilə bilər);
- ✓ Quru nəqliyyatının bir növü olan velosipedlərdən istifadənin genişləndirilməsi, istifadəsi üçün velosiped yollarının çəkilməsi;
- ✓ Nəqliyyat vasitələrində zəhərli qazların yaranma miqdarnı ölçmək üçün texnoloji vasitələrin tətbiqinin təmin edilməsi;
- ✓ Elekrtomobillərin istifadəsi üçün elektrik enerjisi yükləmə məntəqələrinin yalnız mərkəzi regioblarda deyil bütün bölgələrdə tətbiq edilməsi ilə insanlarda elektrik enerjisi ilə çalışan nəqliyyat vasitələrinə tələbatın artırılması;
- ✓ Turizm zonalarına səyahət edilməsi üçün elektrikli avtobusların, tranvayların yaradılması;
- ✓ Qədim dövrlərdə tətbiqinə üstünlük verilən nəqliyyat vasitələrindən turizmdə geniş istifadə edilməsinə şərait yaradılması;
- ✓ Ekoloji turizm nəqliyytalarından istifadə edilmənin təmin edilməsi üçün dövlət və özəl müəsisələr tərəfindən büdcə ayrılması;
- ✓ Turistlərin səyahət zamanı ekoloji çirklənməyə səbəb olan nəqliyyat vasitələrindən istifadəni azaltmalarına təşfiq etmək;
- ✓ Turizm nəqiyyat vasitəsindən istifadə də dünya təcrübəsindən istifadə etmək;
- ✓ Ekoloji çirklənmənin qarşısının alınması üçün ekoloji nəqliyyat vasitələrindən istifadə üçün qanunvericilikdə yeni qanunlar qüvvəyə minməlidir;
- ✓ Ekoloji çirklənmədə xüsusi rol oynayan turizm nəqliyyatlarının tətbiqinə məhdudiyyətlər qoyulmalıdır.(yanacaqla hərəkət edən avtobus, avtomobillər)

Ekoloji çirklənmənin qarşısının alınması prosesində verilmiş təkliflərə uyğun olaraq tədbirlərin görülməsi həm turizmin inkişafında yeni sistemin qurulmasına, həm də ekoloji təmizliyin təmin edilməsinə səbəb olacaqdır.

# XÜLASƏ

Turizm  dünya ölkələri iqtisadiyyatının inkişaf etməkdə olan və inkişaf etmiş iqtisadiyyat sahələrindən biridir. Turizm nəqliyyatı isə Turizmin inkişafında əsas məqsədə çatmaq üçün yardımçı əsas vasitədir. Nəqliyyatın bu növünün əsas xüsusiyyəti turistlərə xidmət etməsidir.

Turistlərin daşınması, ünvana çatdırılmasında düzgün nəqliyyat vasitəsinin seçilməsi çox önəmlidir. Qlobal istiləşmə nəticəsində görülən tədbirlərə turizm nəqliyyatından istifadə edilməsi də daxildir. Ekoloji çirklənmənin səbəb olduğu Qlobal istiləşmənin qarşısını almaq üçün ekoloji turizm nəqliyyatından istifadə edilməlidir. Ekoloji nəqliyyat vasitələrindən istifadə edilmə perspektivlərinə nəzər salaq:

1. Yanacaqla hərəkət edən nəqliyyat vasitələrindən istifadədə karbon emissiyasına səbəb olmayan yanacaqlardan istifadə etmək lazımdır.

2.  Turizm nəqliyyatının optimallaşdırma və planlaşdırılması  nəticəsində istifadə edilərək ekoloji çirklənmənin qarşısının alınmasına nail olmaq olar.

3. Texnoloji inkişafın nəticəsi olan elektrik, günəş, yaşıl enerji ilə çalışan nəqliyyat vasitələrindən istifadə edilməsi üçün səylər artırılmalı, maliyyə dəstəyi göstərilməlidir.

Ekoloji nəqliyyat vasitələrindən istifadə edilməsinin İqtisadi perspektivlərinə nəzər salaq.

1. Turizm nəqliyyatından istifadə edilməsi yeni yaranacaq iş yerləri deməkdir. Ekoloji nəqliyya vasitələrindən kütləvi şəkildə istifadə edilməklə həm işsizliyin azaldılması, həm də  iqtisadi inkişafda yeni səylər deməkdir.

2. Sərnişin daşınmasında texnoloji vasitələrdən istifadə edərək daha səmərəli şəkil almasına səbəb olur.

3. Regionlarda ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi üçün nəqliyyat şəbəkələri yaradılmasında dövlət və özəl qurumların dəstəyinin təmin edilməsi nəticəsində ölkədə nəqliyyat vasitələrindən istifadənin genişləndirilməsinə səbəb ola bilər.

Turizm nəqliyyatından istifadə həm iqtisadi, həm də ekoloji inkişafın təmin edilməsinə səbəb ola bilər. Dövlət orqanları, özəl turizm şirkətləri bərabər çalışması

ekologiyanın çirklənməsinin qarşısı alınmasında görüləcək tədbirlərə səbəbdir. Ekoloji çirklənmənin qarşısının alınmasında yalnız turizm nəqliyyatında deyil, butun sahələr üzrə istifadə edilən nəqliyyat vasitələrində ekologiyanın çirklənməsinə səbəb olacaq nəqliyyat vasitələrindən istifadə edilməlidir.

## SUMMARY

Tourism is one of the developing and developed sectors of the economy of the countries of the world. And tourism transport is the main auxiliary means of achieving the main goal in the development of Tourism. The main feature of this type of transport is that it serves tourists.

Choosing the right vehicle is very important when transporting tourists and delivering them to the addressee. The measures taken as a result of global warming also include the use of tourist transport. Ecological tourism transport should be used to prevent global warming caused by environmental pollution. Let's take a look at the prospects for using ecological vehicles:

1. In the use of vehicles moving on fuel, it is necessary to use fuels that do not cause carbon emissions.

2. As a result of optimization and planning of tourist transport, it is possible to achieve the Prevention of environmental pollution by using it.

3. Efforts should be increased and financial support should be provided for the use of electric, solar and green energy vehicles, which are the result of technological development.

Let's look at the economic prospects for using ecological vehicles.

1. The use of tourist transport means new jobs. The massive use of ecological transport means means both reduction of unemployment and new efforts in economic development.

2. Using technological means in passenger transportation leads to more efficient picture acquisition.

3. As a result of the support of public and private institutions in the creation of transport networks for the use of environmentally friendly vehicles in the regions, the

expansion of the use of vehicles in the country may be caused. The use of tourist transport can lead to ensuring both economic and environmental development. Public authorities and private tourism companies work equally as a reason for measures to be taken to prevent environmental pollution. In the Prevention of environmental pollution, it is necessary to use vehicles that will cause environmental pollution not only in tourist transport, but also in vehicles used in all areas

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı”  Azərbaycan Respublikası prezidentinin fərmanı, 29 yanvar, Bakı, 2019.

2. “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında”.

3. Azərbaycan Respublikası prezidentinin fərmanı, 24 noyabr, Bakı, 2003.

4. “Azərbaycan Respublikasında  2002-2005-ci illərdə turizmin inkişafina dair Dövlət Proqramı”, 27 avqust 2002, Bakı.

5. B.Ə. Bilalov “Turizm fəaliyyətinin tənzimlənməsi”, 2006,Bakı. 276

6. C.A. Məmmədov, B.Ə. Bilalov  “Azərbaycanda gəlmə turizm və onun inkişaf yollan”, 2004, Bakı.

7. C.A. Məmmədov, H.B. Soltanova, S.H. Rəhimov Beynəlxalq, “Turizmin coğrafiyası”, 2002, Bakı.

8. E. Ə. Əliyev, Beynəlxalq Nəqliyyat Daşimalarinin Konvension Təsbiti, “Hüquq ədəbiyyatı” nəşriyyatı, Bakı – 2002

9. Ə.T.Əsgərov, B.Ə.Bilalov, Ç.G.Gülalıyev “Ekoloji turizm”, Bakı, 2011,  276

10. Ə.Cabbarov, “Turizmin İqtisadi Əsasları”, Bakı-2015

11. “İqtisadi Təhlükəsizlik Mövcud Vəziyyət Və Perspektivlər Beynəlxalq Elmi Konfrans Materiallari”, Sumqayıt, 2018.

12. İ. Hüseynov,  N. Əfəndiyeva “Turizmin Əsasları”, Bakı, 2007.

13. M. Məmmədov, “Nəqliyyatın dinamik inkişaf strategiyası”, Çaşıoğlu-2015

14. M. Abadov, “Azərbaycan Turizmi Və Onun İnkişaf Problemləri”, BAKI-2014

15. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, 1 dekabr, 1992.

16. S.N. Rəhimov Turizm-ekskursiya işinin təşkili, 2004, Bakı.

17. S.Səfərov, R.Mahmudov, “Müasir iqlim dəyişmələri və Azərbaycan”, Bakı-2011

18. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu, 27 dekabr, Bakı,

2021.
19. T. Yadigarov, “Azərbaycan İqtisadiyyatinda Dəniz Nəqliyyati: Problemlər Və Perspektivlər”, Bak-2018

20. Y.Yusifov, “Nəqliyyat və Rabitə Statistikasi”, BAKI – 201

21. Z. Məmmədov, XXI Əsr: İqtisadi İnkişafin Nəqliyyat Faktoru, Bakı – 2002

**22. https://mincom.gov.az/az/media/xeberler/beynelxalq-aviasiya-ve-iqlim-deyisikliyi-movzusunda-panel-muzakiresi-kecirilib**

**23. http://e-qanun.az/framework/3515**

24. **https://justice.gov.az/documents/AZ/Konstitusiya.pdf**

25. https://e-qanun.az/framework/3852

26. **https://www.stat.gov.az/source/tourism/az/002_2.xls**